Milli Məclis

Analitik informasiya jurnalı

YUBİLEY BURAXILIŞI

AZƏRBAYCAN PARLAMENTİ 90

“Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır!”

H.Əliyev

Milli Məclis
Analitik informasiya jurnalı

PARLAMENT-90
Xüsusi buraxılış

Təsisçi:
Azərbaycan Respublikasının
Milli Məclisi

Redaksiya şurası:
Oqtay Əsədov, Ziyafət Əsgərov,
Bahar Muradova, Valeh Ələsgərov,
Səfa Mirzəyev, Əli Hüseynov,
Ziyad Səmədzadə, Eldar İbrahimov,
Hadi Rəcəbli, Arif Rəhimzadə,
Şəmsəddin Hacıyev, Nizami
Cəfərov, Rəbiyyət Aslanova,
Səməd Seyidov, Ağacan Abıyev,
Mələhət Həsənova

Baş redaktor:
Ülviyyə Abdullayeva

Baş redaktorun müavini:
Mübariz Əsgərov

Məsul redaktor:
Aidə Əhmədova

Məsul katib:
İsmət Həmidov

Dizayn:
Vəfadar Əliyev

"Kütləvi informasiya vasitələri
haqqında" Azərbaycan
Respublikası Qanununa
müvafiq olaraq təsis edilib.

Redaksiyanın ünvanı:
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 99 07
(+99 412) 510 67 01

Yubiley iclasında iştirak
edən qonaqların çıxışları
ixtisarla verilib.

**Jurnal 2007-ci ilin may
ayından nəşr olunur**

Azərbaycan parlamentinin 90 illik yubileyi ilə bağlı Milli Məclisin 2008-ci il iyunun 19-da keçirdiyi təntənəli mərasimdən hazırlanmış xüsusi buraxılış

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 90 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2008-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi tamam olur. Müasir Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini bərpa edərək, Xalq Cümhuriyyətinin siyasi varisi kimi onun bayrağını, gerbini, himnini qəbul etmişdir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may günü hazırda Respublika günü kimi qeyd olunur.

Müsəlman Şərqində ilk parlament respublikası – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, müasir dövrə xas dövlət təsisatlarının yaradılmasına nail olmuşdu. Milli parlamentarizmin təşəkkül tarixi isə Azərbaycan parlamentinin 1918-ci il dekabr ayının 7-də keçirilmiş ilk iclasından başlayır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu idi. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və digər görkəmli şəxsiyyətlər tərəfindən təməli qoyulmuş proseslər Azərbaycanda yeni tipli teatrın, məktəbin və mətbuatın yaranması ilə nəticələnmiş, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Bakının neft paytaxtına çevrilməsi milli sahibkarlar təbəqəsinin formalaşması ilə yanaşı, dünyanın aparıcı universitetlərində təhsil almış ziyalılar nəslinin yetişməsinə şərait yaratmışdır. Əlimərdan bəy Topçubaşov və başqa ziyalıların siyasi proseslərə qatılması, dumaya seçilməsi və Rusiya müsəlmanlarının təşkilatlanmasında oynadıqları rol tariximizin unudulmaz səhifələrindəndir.

Rusiyada çar üsul-idarəsinin ləğvi, baş verən fevral və oktyabr çevrilişləri, Birinci dünya müharibəsinin fəsadları və bir sıra digər amillər Qafqazı ayrı-ayrı siyasi qüvvələrin qarşıdurma meydanına çevirmişdi. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə göstərdiyi maraq vəziyyəti daha da gərginləşdirirdi.

İlk qərarı ilə milliyyəti, dini, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına bərabər hüquqlar verən cümhuriyyətin yaranması çox mürəkkəb şəraitdə elan olunmuşdur. Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir. Bununla belə, bu tarixdə ürəyimizi qürur hissi ilə dolduran hadisələrlə yanaşı, ümummilli faciələrə yol açan səhifələr də vardır.

Azərbaycan Xalq Cümhuriyyətinin öz dövlətçilik atributlarını qəbul etməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrində atdığı addımlar xalqımız üçün taleyüklü əhəmiyyət kəsb etmişdir. Cümhuriyyətin böyük uğurlarından biri Paris Sülh Konfransında 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqil dövlət kimi tanınması olmuşdur. Lakin ölkənin öz neftini xarici bazarlara çıxarmaqdan təcrid edilməsi nəticəsində yaranmış siyasi, iqtisadi və sosial böhran güclənirdi. Həmçinin parlament daxilində hökm sürən hərc-mərclik, Qarabağda və Zəngəzurdakı erməni silahlı dəstələri ilə qarşıdurmalar gündən-günə dərinləşirdi. Əhalinin əsas hissəsinin

ağır durumu isə bolşevik təbliğatı üçün münbit zəmin yaradırdı. İrəvanın ermənilərə paytaxt kimi verilməsindən sonra İrəvan mahalından qaçqın düşmüş 150 mindən artıq soydaşımızın vəziyyəti olduqca gərgin idi. Belə bir vəziyyətdə parlamentin son iclasında bolşevik ultimatumunun qəbul edilməsi Aprel işğalı ilə nəticələndi.

Aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin bir qismini Məmmədəmin Rəsulzadə kimi mühacir həyatı yaşamağa məhkum etdi, digər qismini Fətəli xan Xoyski və Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanına çevirdi, qalanlarını da bolşevizmin amansız repressiyalarına məruz qoydu.

1920-ci il aprelin 28-də ikinci respublika – Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İki il ərzində öz müstəqilliyini qoruyub saxlamağa nail olan respublika 1922-ci ildə SSRİ-nin tərkibinə daxil olduqdan sonra öz müstəqilliyinin ancaq formal atributlarını saxlaya bilmişdi. Yalnız onu əvəz edən dördüncü respublika müstəqillik ideyasını yaşatmış və Azərbaycan bütün sərvətlərinin, o cümlədən neftinin tam sahibi kimi çıxış edə bilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sanballı əsərlər, hətta ikiciddlik ensiklopediya nəşr edilsə də, tariximizin bu mərhələsi ilə bağlı çox sayda sənədlər hələ xarici ölkələrin qapalı arxivlərində saxlanılır və öz tədqiqatçılarını gözləyir.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizdə milli dövlətçilik tarixində xüsusi yer tutduğunu nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi respublikada geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin yaranmasının 90 illiyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə olunsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 fevral 2008-ci il.

MİLLİ MƏCLİSİN YUBİLEY TƏDBİRLƏRİ

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyi ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamda əlamətdar tarixlə bağlı Milli Məclisin xüsusi iclasının keçirilməsi də tövsiyə olunurdu. Milli Məclis rəhbərliyi həmin sənəddən irəli gələn tövsiyələrə əsasən Azərbaycan parlamentinin 90 illiyi ilə bağlı rəngarəng tədbirlər həyata keçirməyə başladı. Milli Məclisdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi və ölkə parlamentinin 90 illiyi münasibəti ilə "Heydər Əliyev müasir Azərbaycan parlamentinin banisidir" adlı kitabın təqdimat mərasimi yubiley tədbirlərinin başlanğıc nöqtəsi oldu. "Parlament kuboku – 2008" futbol turniri isə yubiley tədbirlərinə xüsusi rəngarənglik verdi. Bundan başqa "Milli Məclis" jurnalının parlamentimizin 90 illiyinə həsr olunmuş xüsusi buraxılışı nəşr edildi. Milli Məclisin Azərbaycan parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli iclası isə yubiley tədbirlərinin kulminasiya nöqtəsi oldu.

Milli Məclisin rəhbərliyi xüsusi iclasın yüksək səviyyədə keçirilməsi üçün bütün imkanları səfərbər etdi. Elə bir iclasın keçirilməsi nəzərdə tutulurdu ki, bu tədbir Azərbaycan parlament tarixinə layiqli töhfə olsun. Ona görə də dünyanın ayrı-ayrı dövlətlərinin parlamentlərinə və beynəlxalq təşkilatlara dəvət məktubları ünvanlandı. Nəhayət, iyunun 17-dən xarici qonaqlar Bakıya gəlməyə başladı. Azərbaycan parlamentinin 90 illik yubileyində iştirak etmək üçün xarici ölkələrin 9 parlament sədri, 18 sədr müavini, 102 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının nümayəndələri, eləcə də xarici dövlətlərin Bakıdakı diplomatik korpusunun üzvləri bayram sevincini bizimlə bölüşmək üçün mərasim tədbirlərinə qatıldılar.

Qonaqların Heydər Əliyev beynəlxalq hava limanında qarşılanmasından tutmuş, onların ölkəmizdə olduqları müddətdə səfər proqramlarının zəngin və maraqlı təşkilinə qədər bütün işlər ölçülüb-biçilmiş və əsl Azərbaycan qonaqpərvərliyinə uyğun, yüksək standartlar səviyyəsində qurulmuşdu. Milli Məclis bu böyük missiyanı çox uğurla yerinə yetirdi və keçirilən tədbir həqiqətən də Azərbaycan parlament tarixinə layiqli töhfə oldu. Ona görə də "Milli Məclis" jurnalının növbəti xüsusi buraxılışı Milli Məclisin Azərbaycan parlamentinin 90 illik yubileyi ilə bağlı 2008-ci il iyunun 19-da keçirdiyi təntənəli mərasimə həsr olunur.

TÜRKİYE CUMHURİYETİ

Azərbaycan parlamentinin 90 illik yubileyi ilə əlaqədar iyunun 19-da keçirilən təntənəli mərasim Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin məzarının ziyarəti ilə başladı. Xarici ölkələrin parlament sədrləri, müavinləri, parlament nümayəndə heyətlərinin üzvləri, Milli Məclisin rəhbərliyi, millət vəkilləri, xarici ölkələrin Azərbaycandakı səfirləri və digər qonaqlar Fəxri xiyabana gələrək müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad etdilər, məzarı önünə əklillər və gül dəstələri qoydular.


MÜSTƏQİL AZƏRBAYCAN
DÖVLƏTİNİN BANİSİ
HEYDƏR ƏLİYEVƏ
AZƏRBAYCAN PARLAMENTİNİN
90 İLLİK YUBİLEYİ
İŞTİRAKÇILARINDAN

Sonra mərasim iştirakçıları Şəhidlər xiyabanını ziyarət etdilər. Qonaqlar Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman oğul və qızlarımızın məzarları üzərinə güllər düzdülər, "Əbədi məşəl" abidə kompleksi önünə əklil qoydular.



Təntənəli iclasdan əvvəl Milli Məclisin Heydər Əliyev Xatirə zalında Ulu öndərin həyatı və siyasi fəaliyyəti ilə tanış olan parlament sədrləri xatirə kitabına ürək sözlərini yazdılar.

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ İCLASI

Azərbaycan parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli iclasın iştirakçıları Milli Məclisin iclas zalına daxil olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi alqışlarla qarşıladılar. Yubiley tədbiri Azərbaycan Respublikasının Dövlət Himni ilə başladı. Sonra Milli Məclisin sədri Oqtay Əsədov iclası açaraq dedi:

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevi Milli Məclisdə səmimi qəlbdən salamlayırıq.

Hörmətli deputatlar, Azərbaycan parlamentinin 90 illiyi münasibətilə sizin hamınızı ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar arzulayıram!

Azərbaycan parlamentinin 90 illik yubileyində iştirak etmək üçün Bakıya gəlmiş xarici ölkələrin parlament sədrlərinə, parlament nümayəndə heyətlərinə, beynəlxalq təşkilatların təmsilçilərinə, bütün qonaqlarımıza səmimi qəlbdən xoş gəlmisiniz deyirəm.

Xarici ölkələrin 9 parlament sədri, 18 sədr müavini, 102 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının, eləcə də xarici dövlətlərin Bakıdakı diplomatik korpusunun nümayəndələri bu gün bizimlə birlikdə sevincimizi bölüşürlər. Ümumiyyətlə, qonaqlarımızın təmsil etdikləri ölkələrin coğrafiyası İndoneziyadan Kanadayadək olan məkanı əhatə edir.

90 il əvvəl Azərbaycanda müasir dövrün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi xalqımızın tarixi taleyində müstəsna rol oynamışdır. 1918-1920-ci illərdə cəmi 17 ay fəaliyyət göstərən parlament Azərbaycanın gələcək həyatı üçün dəyərli işlər görə bilmişdir. Bu işlər sayəsində Şərq aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi təməli yaradılmışdır. Dövlət bayrağı və himni qəbul edilmiş, ana dili dövlət dili elan olunmuşdur. Dünyada birincilər sırasında, Şərq aləmində ilk dəfə olaraq məhz bu parlament qadınlara səsvermə hüququ vermişdir. Dövlət quruculuğu, iqtisadi, sosial, mədəni və hərbi sahələrdə qəbul edilən qanunvericilik aktları müstəqil dövlətin səmərəli fəaliyyətinə imkan yaratmışdır. O dövrdə Azərbaycanda mövcud olan bütün siyasi qüvvələrin və müxtəlif millətlərin nümayəndələri parlamentdə təmsil olunmuşdur.

Bütün bunlar Azərbaycan xalqının həyatın-

da parlamentarizm ənənələrinin yeni inkişaf mərhələsinə daxil olduğunu göstərirdi. Dövlət Dumasına Azərbaycandan 13 nəfər azərbaycanlı deputat seçilmiş və onun fəaliyyətində iştirak etmişdir.

Azərbaycanın Sovet İttifaqı tərkibində olduğu dövrdə əsasən Ali Sovet adı ilə fəaliyyət göstərən qanunvericilik orqanı məhdud səlahiyyətlərə malik olmuşdur. Lakin belə bir şəraitdə də Azərbaycan xalqı parlamentarizm ənənələrinin yoxa çıxmasına imkan verməmişdir.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımız yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı sayəsində böhran və təlatümlər dövrünü geridə qoymuş, kövrək vəziyyətdən çıxıb sabitlik və inkişaf dövrünə daxil olmuş, əsl dövlət müstəqilliyini əldə etmişdir.

Müasir Azərbaycan parlamenti də Heydər Əliyevin rəhbərliyi altında yaranmışdır. Ulu öndər 1993-cü ilin oktyabrında prezident seçilənədək dörd ay parlamentə rəhbərlik etmişdir. Heydər Əliyevin Azərbaycan parlamentinin sədri kimi fəaliyyəti ölkəmizdə parlamentarizm ənənələrinin inkişafında müstəsna rol oynamışdır. Sonrakı dövrdə də Ulu öndər qanunvericilik orqanına daim böyük qayğı göstərmiş, parlament quruculuğu məsələlərini diqqət mərkəzində saxlamışdır.

Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Konstitusiya əsasında müasir parlament formalaşdırılmışdır. Artıq 13 ilə yaxındır ki, Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirir. Parlament dövlətimizin müasir tələblərə cavab verən qanunvericilik bazasını yaratmış və təkmilləşdirmişdir.

1995-ci ildən indiyədək Milli Məclis dövlət və cəmiyyət həyatının müxtəlif sahələrini nizama salan 2500-dən çox qanun və qərar qəbul etmişdir. Onu da qeyd edim ki, parlamentdə qəbul edilən qanunlar milli dəyərlər nəzərə alınmaqla, üzv olduğumuz beynəlxalq təşkilatların ən yüksək standartlarına uyğun şəkildə hazırlanmışdır. Bu, bizim şüurlu seçdiyimiz yoldur və biz bu işi davam etdiririk.

Azərbaycan parlamenti müasir demokratik dövlətlərdə mövcud olan prosedur qaydaları əsasında fəaliyyət göstərir. Milli Məclis xalqın və dövlətin mənafeləri ilə bağlı vəzifələri, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məsələlərini daim diqqət mərkəzində saxlayır. Ölkədə uğurla həyata keçirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşdirmə prosesinin hüquqi mexanizmi daha da inkişaf etdirilir.

Milli Məclis beynəlxalq əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verir. Ölkənin qanunvericilik orqanı 7 beynəlxalq parlament təşkilatının üzvüdür, bir neçə parlament təşkilatı, o cümlədən Avropa Parlamenti, NATO-nun Parlament Assambleyası, Baltik Parlament Assambleyası ilə yaxından əməkdaşlıq edir.

İkitərəfli əlaqələrin inkişafına böyük diqqət yetirilir. Milli Məclisdə 70-dən çox ölkənin parlamenti ilə əlaqələr üzrə deputat dostluq qrupları yaradılmışdır. Bu qrupların üzvləri xarici ölkələrdəki həmkarları ilə sıx əlaqə saxlayır, qarşılıqlı səfərlər edir, təcrübə mübadiləsi aparırlar. Bütün bunlar ölkələrin bir-birinə yaxınlaşmasına kömək göstərir və xalq diplomatiyasının uğurlarını nümayiş etdirir.

Hörmətli xanımlar və cənablar!

Azərbaycanda dövlət hakimiyyət bölgüsü prinsipi əsasında qurulmuşdur. Biz qürur hissi ilə söyləyə bilərik ki, parlamentlə Prezident arasında çox gözəl münasibətlər mövcuddur. Parlamentin qəbul etdiyi layihələrin 80 faizindən çoxu cənab Prezidentin təşəbbüsü ilə müzakirəyə çıxarılır. Biz əminik ki, bu münasibətlər gələcəkdə də bu qaydada davam edəcəkdir.

Möhtərəm cənab Prezident səkkiz il ərzində Azərbaycan parlamentinin deputatı olmuşdur, Milli Məclisin gündəlik fəaliyyətini, problemlərini parlamentin içərisindən müşahidə edib bələd olmuşdur. Milli Məclisin qayğılarını bildiyinə görə qanunvericilik orqanına çox böyük diqqət və dəstək göstərir. Möhtərəm cənab Prezidentin burada olmasından istifadə edərək, bu diqqətə və dəstəyə görə ona minnətdarlığımızı bildiririk və dəyərli fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Milli Məclis Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə həll edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin fəaliyyətini müdafiə edir və problemin nizama salınacağına ümid bəsləyir və inanır.

Əziz qonaqlar, bu bayram günündə bizimlə birlikdə olduğunuza görə sizin hamınıza təşəkkür edirəm.

90

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN MİLLİ MƏCLİSİN AZƏRBAYCAN PARLAMENTİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ İCLASINDA NİTQİ

Hörmətli xanımlar və cənablar!

Hörmətli deputatlar, əziz qonaqlar!

Mən sizin hamınızı bu gün bu gözəl gündə ürəkdən salamlayıram. Bütün qonaqlara xoş gəlmisiniz deyirəm.

Bu gün Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Biz Azərbaycan parlamentinin 90 illik yubileyini təntənəli şəkildə qeyd edirik. Bu, həqiqətən də çox əlamətdar və tarixi hadisə olmuşdur. Biz keçən ay Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyini geniş şəkildə qeyd etmişik. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında tarixi bir hadisə idi. Çünki ilk dəfə müsəlman aləmində, bütövlükdə Şərqdə demokratik respublika yaranmışdır. Müxtəlif səbəblər nəticəsində respublikanın ömrü uzun olmamışdır və iki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etmiş və Azərbaycan xalqı yenidən müstəqillikdən məhrum edilmişdir.

Biz öz tariximizi yaxşı bilirik və onu da bilirik ki, bu acı tarix 1990-cı illərin əvvəllərində də təkrarlana bilərdi, daha doğrusu, təkrarlanırdı. Azərbaycan xalqı yenidən müstəqilliyə qovuşanda, Sovet İttifaqının dağılması nəticəsində müstəqil respublika kimi fəaliyyətə başlayanda ölkədə gedən ictimai-siyasi proseslər çox mürəkkəb idi, çox gərgin idi və demək olar ki, gənc dövlətin gələcəyi o qədər də müəyyən deyildi. Çünki həm ölkə daxilində, həm də hüdudlarımızdan kənarda gedən proseslər Azərbaycanı çox ağır vəziyyətə qoymuşdu. Bir tərəfdən, Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi, digər tərəfdən, daxildə yaşanan siyasi və iqtisadi böhran vəziyyəti son dərəcə gərginləşdirmişdi. Bu çətin, ağır şəraitdə Azərbaycan xalqı düzgün seçim etmişdir.

1993-cü ildə Azərbaycan xalqı milli lideri Heydər Əliyevə müraciət edərək onu yenidən siyasi hakimiyyətə gətirməklə öz müstəqilliyini qoruya bilmişdir. Biz müstəqilliyi qoruduq, möhkəmləndirdik və bu gün Azərbaycan müstəqillik yolu ilə uğurla inkişaf edir. Bütün bu işlərdə Azərbaycan parlamentinin böyük rolu olmuşdur. Çünki yeni Azərbaycanın qurulmasının, müstəqil güclü dövlətin qurulmasının əsası məhz bu binada qoyulmuşdur.

Biz bir neçə gün bundan əvvəl Milli Qurtuluş gününü geniş şəkildə qeyd etmişik. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilməndən sonra ölkəmizdə vəziyyət müsbətə doğru dəyişilməyə başlamışdır. Xoşagəlməz bütün hadisələrin qarşısı alınmışdır. Qeyri-qanuni silahlı birləşmələr tərksilah edilmişdir. Azərbaycanda asayiş bərpa olunmuşdur, sabitlik yaranmışdır və beləliklə, hərtərəfli inkişaf üçün çox gözəl şərait yaradılmışdır.

Ondan əvvəl, hələ Azərbaycan müstəqil olmayan dövrdə Naxçıvan Muxtar Respublikasının parlamenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı elan etmişdir. O vaxt Azərbaycan hələ müstəqil deyildi, Sovet İttifaqının tərkibində idi. Ancaq Naxçıvanda tarixi qərarın qəbul olunması bizim müstəqilliyimizi yaxınlaşdırırdı. Bütün başqa həlledici məqamlarda xalqla Heydər Əliyev arasında olan birlik Azərbaycanı bu çətin, ağır şəraitdən şərəflə çıxara bilmişdir.

Bu gün ölkəmiz uğurla inkişaf edir. Azərbaycanda parlamentarizm ənənələri də yaranır. Azərbaycan parlamenti öz beynəlxalq əlaqələrini genişləndirir və bu gün biz bu tədbirdə müxtəlif ölkələrdən gələn qonaqların timsalında bunu görürük. Biz görürük ki, Azərbaycan dünya birliyinə çox sürətlə inteqrasiya

edir, Azərbaycanda hakimiyyətin bütün qolları vahid komanda kimi fəaliyyət göstərir və vahid amal uğrunda birləşibdir. Bu amal ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin, ölkə daha da inkişaf etsin və inkişaf etmiş ölkələrin sıralarına daxil olsun.

Biz bu vəzifəni qarşımıza qoymuşuq və bu, çox böyük, məsuliyyətli vəzifədir. Ancaq 10 il, 15 il bundan əvvəl qarşımızda başqa vəzifələr dayanmışdı. O vaxt biz fikirləşirdik ki, Azərbaycanı ağır, çətin vəziyyətdən necə çıxaraq? İqtisadi tənəzzülün qarşısı necə alınmalıdır? Siyasi və iqtisadi islahatlar necə aparılmalıdır? Bütün bunlar bizim üçün yenilik idi. Azərbaycan qarşısında, müstəqil gənc dövlət qarşısında müxtəlif inkişaf istiqamətləri mövcud idi. Ulu öndər Heydər Əliyevin seçdiyi yol yeganə düzgün yoldur. Bu da ondan ibarətdir ki, Azərbaycan dünya birliyinə sürətlə inteqrasiya etməlidir, Azərbaycanın inkişafı daxili resurslar əsasında təmin olunmalıdır, Azərbaycan öz təbii sərvətlərindən məharətlə istifadə etməlidir və öz milli maraqlarını maksimum dərəcədə möhkəmləndirməlidir. Azərbaycanda çox güclü iqtisadi potensial yaradılmalıdır. Bu gün biz keçmişə nəzər salarkən görürük ki, ölkə qarşısında ən çətin və həlledici məqamlarda duran bütün əsas vəzifələr uğurla icra edilmişdir.

Bu gün Azərbaycan inkişaf dövrünü yaşayır. Bizdə siyasi və iqtisadi islahatlar uğurla həyata keçirilir. Bir daha qeyd etmək istəyirəm ki, Milli Məclisin bu işdəki fəaliyyətini mən çox yüksək qiymətləndirirəm. Azərbaycan bir neçə çox vacib beynəlxalq sazişlərə, konvensiyalara qoşulmuşdur. Mütərəqqi qanunlar qəbul edilir və bu qanunlar Azərbaycanda siyasi sistemin möhkəmlənməsinə və iqtisadi islahatların dərinləşməsinə xidmət göstərir. O da həqiqətdir ki, baxmayaraq, Azərbaycan xalqının çox qədim və zəngin tarixi, mədəniyyəti vardır, Azərbaycanda bundan əvvəl heç vaxt siyasi sistem olmayıbdır. Biz yalnız müstəqilliyi bərpa edəndən sonra siyasi islahatlara başlamışıq və tarix baxımından çox qısa müddət ərzində bütün lazımi tədbirləri görmüşük. Azərbaycanda siyasi sistem yaradılıb, siyasi təsisatlar yaradılıb və möhkəmlənib, Azərbaycan beynəlxalq təşkilatlarla çox uğurlu və qarşılıqlı hörmət əsasında əməkdaşlıq edir. Bir daha demək istəyirəm ki, həm iqtisadi sahədə, həm sosial məsələlərin həlli işində, həm də siyasi islahatların dərinləşməsində Milli Məclis tərəfindən qəbul edilmiş qərarlar xüsusi rol oynayır. Mən çox şadam ki, bizim ölkəmizin inkişafı üçün hakimiyyətin bütün qolları öz töhfələrini verirlər.

Bu gün bizim qarşımızda yeni vəzifələr dayanır, yeni çağırışlar dayanır və biz bunlara hazır olmalıyıq. İlk növbədə, yenidən qeyd etmək istəyirəm ki, Azərbaycan öz müstəqil siyasətini davam etdirəcəkdir. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına xidmət göstərir, milli maraqlarımızı qoruyur və Azərbaycan əhalisinin rifah halının yaxşılaşmasına xidmət göstərir. Siyasi proseslərin müsbət istiqamətdə inkişaf etməsi, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, xalqla iqtidar arasında birliyin möhkəmlənməsi - bütün bu amillər ölkəmizin hərtərəfli inkişafı üçün gözəl şərait yaradır.

Sabitlik olmayan yerdə inkişaf mümkün deyil. Eyni zamanda, inkişaf etmiş ölkələrin tarixinə, yaxud da indiki vəziyyətinə nəzər salsaq görərik ki, o ölkələrdə sabitlik mövcuddur. Yəni bu iki amil bir-birini tamamlayır. Mən çox şadam ki, Azərbaycanda biz həm inkişafa nail ola bilmişik, həm də Azərbaycanda sabitlik çox yüksək səviyyədədir. Əminəm ki, gələcək illərdə biz qarşımıza qoyduğumuz bütün vəzifələrə, hədəflərə çatacağıq.

Biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru uğurla irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir. Biz son dörd il ərzində iqtisadi inkişaf baxımından dünyada ən sürətlə inkişaf edən ölkəyik. Dörd il ərzində Azərbaycanda ümumi daxili məhsul 96 faiz artmışdır ki, bu da analoqu olmayan bir göstəricidir.

Bununla bərabər, Azərbaycanda uğurla həyata keçirilən sosial islahatlar öz müsbət nəticələrini verir. İldən-ilə Azərbaycan xalqı daha da yaxşı yaşayır. Azərbaycan xalqının rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşmüşdür. Son dörd il ərzində 49 faizdən 16 faizə düşən yoxsulluğun səviyyəsi onu göstə-

rir ki, bizim qəbul edilmiş bütün qərarlar, siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz, ilk növbədə, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir.

Regionlarda gedən abadlıq-quruculuq işləri, yeni iş yerlərinin açılması və regionların sosial-iqtisadi inkişafına dair beşillik Dövlət proqramının uğurla icra edilməsi bizim böyük nailiyyətimizdir. Bu gün artıq bölgələrdən mərkəzə miqrasiya meyilləri demək olar ki, son dərəcə azalıbdır. Bu gün bölgələrdə insanların yaşaması üçün ən müasir infrastruktur yaradılır - istər səhiyyə, istər təhsil, istər nəqliyyat və sair sahələrdə. Biz öz təbii sərvətlərimizdən çox böyük səmərə ilə istifadə edərək təbii resurslarımızı insan kapitalına çeviririk.

Bu gün əsas prioritetlərdən biri Azərbaycan xalqının və gələcək nəslin bilikli olmasıdır, eyni zamanda, bizim milli adət-ənənələrimizin təmin olunması şərti ilə dünyada gedən proseslərə qoşulmasıdır, dünya birliyinə inteqrasiya etməsidir.

Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, biz öz ana dilimizi saxlaya bilmişik, öz mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edibdir, milli ənənələrimiz qorunub saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər.

Azərbaycan cəmiyyətində bütövlükdə ölkədə aparılan bütün islahatlara böyük rəğbət var. Əgər belə olmasaydı, heç bir islahatın əhəmiyyəti olmazdı. Bəzi hallarda iqtisadi islahatlar, xüsusilə keçid dövründə yaşayan cəmiyyətlər-

də iqtisadi islahatlar insanların həyat səviyyəsinin pisləşməsinə gətirib çıxarır. Ancaq Azərbaycanın timsalında biz bunu görmürük. Əgər belə olsaydı, o zaman yoxsulların sayı azalmazdı, artardı. Bizim güclü sosial siyasətimiz, eyni zamanda, uğurlu iqtisadi islahatlara əsaslanır. Çünki əgər biz iqtisadi potensialı yaratmasaq, sosial proqramların həlli üçün imkanımız olmayacaq. Bir də demək istəyirəm ki, biz ancaq öz imkanlarımıza güvənirik. Biz müstəqilliyi bərpa edəndən sonra bu günə qədər ancaq öz hesabımıza, Azərbaycan xalqının zəhməti hesabına bütün bu gözəl nəticələrə çata bilmişik.

Bu gün qürur hissi ilə deyə bilərik ki, son dörd il ərzində Azərbaycanda büdcə xərcləri 10 dəfədən çox artıbdır. Bizim valyuta ehtiyatlarımız artır və ilin sonuna qədər 20 milyard dollara yaxın olmalıdır. Bu, bizim üçün böyük bir üstünlükdür, böyük bir imkandır. Biz bu imkanlardan çox səmərəli şəkildə istifadə etməliyik. Azərbaycanın bütün sahələrini inkişaf etdirməliyik. İqtisadiyyatımızı şaxələndirməliyik ki, uzun illər bundan sonra, onilliklər bundan sonra Azərbaycan xalqı və gələcək nəsillər rahat yaşasın. Gələcək nəsil də vətənpərvərlik ruhunda tərbiyə almalıdır və mən çox şadam ki, bu gün biz bunu görürük.

Gələcək nəsillərin xoşbəxt yaşaması üçün biz indidən lazımi tədbirləri görürük. Mən bir daha parlamentin bu sahədəki rolunu qeyd etmək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan Dövlət Neft Fondu gələcək nəsillərin rahat yaşaması üçün böyük dərəcədə valyuta ehtiyatlarını yığmağa başlamışdır və bu, bir neçə ildən sonra yüz milyardlarla ölçüləcəkdir. Belə olan halda bu imkanlardan, bu resurslardan səmərəli istifadə etmək üçün ən şəffaf mexanizm yaradılmalıdır. Azərbaycan bu şəffaf mexanizmi yarada bilibdir. Neft Fondundan xərclənən hər bir manat, hər bir dollar ancaq parlamentin razılığı ilə mümkündür. Parlamentin üzvləri büdcəni təsdiq edərkən bu məsələni də həll edirlər. Yəni burada ictimai iştirak və ictimai nəzarət çox güclüdür. Mən bir neçə dəfə bu barədə öz fikirlərimi bildirmişəm, bir də demək istəyirəm ki, çox sürətlə inkişaf edən ölkələrdə, çox böyük dövlət investisiyaları qoyulan bir ölkədə ictimai nəzarət çox güclü olmalıdır.

Biz gələcək haqqında da fikirləşirik və mən əminəm ki, Azərbaycanın gələcəyi çox parlaq

olacaqdır. Bizim beynəlxalq əlaqələrimiz möhkəmlənir, biz yeni müttəfiqlər qazanırıq, bizim xarici siyasətimiz də çox açıqdır, birmənalıdır, çox çevikdir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında öz siyasətimizi qururuq və bu siyasət öz bəhrəsini verməkdədir. Azərbaycan dünyada daha da çox tanınır, Azərbaycana hörmət artır. Azərbaycanın müstəqil siyasəti bilirəm ki, çox böyük rəğbətlə qarşılanır və biz bu müstəqil xəttimizi qoruyub saxlayacağıq. Müstəqilliyimizi daha da möhkəmləndirəcəyik və bunu etmək üçün əlbəttə ki, bizim imkanlarımız daha da artmalıdır. Bu işlər, görülən bütün işlər bir daha demək istəyirəm ki, bir məqsədə yönəldilibdir - Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirsin, Azərbaycanda siyasi islahatlar daha da sürətlə getsin, Azərbaycanda bütün kriteriyalar - istər siyasi həyatda, istərsə də iqtisadi, sosial həyatda bütün kriteriyalar, dünyanın aparıcı ölkələrinin kriteriyalarına yaxınlaşsın. Bunu etmək üçün bizim həm niyyətimiz var, həm də proqramlarımız var. Beynəlxalq təşkilatlarla müxtəlif proqramlar var və biz bunları uğurla icra edirik.

Mən hesab edirəm ki, biz həm siyasi islahatlar sahəsində, həm ölkədə gedən demokratikləşmə prosesinin inkişafında, həm də iqtisadi və sosial məsələlərin həllində nə mümkünsə maksimum dərəcədə etmişik. Bunun nəticəsində bu gün ölkə qarşısında elə problem yoxdur ki, biz onu asanlıqla həll edə bilməyək. Ölkə daxilində sabitlik, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, siyasi sistemin möhkəmlənməsi, iqtisadi islahatlar, çevik xarici siyasət və bölgədə bizim təşəbbüsümüzlə həll olunan irimiqyaslı layihələrin icrası - bütün bu istiqamətlərdə bütün vəzifələr öz həllini tapıbdır.

Bu gün bölgədə gedən uğurlu regional əməkdaşlıq bir çox hallarda məhz Azərbaycanın təşəbbüskarlığı ilə bağlıdır. Biz enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi ilə həm öz iqtisadi imkanlarımızı gücləndiririk,

həm də böyük mənada regional əməkdaşlığa da öz töhfəmizi veririk.

Bildiyiniz kimi, bu gün dünyanın siyasi gündəliyində enerji təhlükəsizliyi məsələləri xüsusi yer tutur. Azərbaycan bu sahəyə öz töhfəsini verir və gələcəkdə də öz töhfəsini verməyə hazırdır. Biz irimiqyaslı enerji layihələrinin təşəbbüskarı və iştirakçısıyıq. Bu layihələrin nəticəsində Azərbaycan xalqı həm böyük mənfəət götürür, həm ölkənin beynəlxalq mövqeləri möhkəmlənir, həm də regional əməkdaşlıq üçün çox gözəl şərait yaranır. Bu gün bizim həm Xəzəryanı ölkələrlə, qonşu dövlətlərlə, həm də Qara dəniz, Baltik dənizi ölkələri ilə üzərində işlədiyimiz konkret layihələr var. Bizim siyasi əlaqələr güclənir və əlbəttə ki, nəqliyyat, enerji və humanitar sahədə regional əməkdaşlıq bu bölgəyə daha da çox imkanlar gətirir, bizim qarşımızda daha da çox imkanlar açır və biz bundan sonra da regional işlərdə öz fəallığımızı davam etdirəcəyik.

Bu gün burada müxtəlif ölkələrdən qonaqlar bizimlə bərabər bu günü qeyd edirlər. Dünən mən nümayəndə heyətlərinin demək olar ki, əksəriyyəti ilə görüşmüşəm. Görüşlər bu gün də davam edəcəkdir. Mən bir də demək istəyirəm, Azərbaycan parlamentinin dəvətini almış, bu gün bizimlə bərabər olan bütün qonaqlara xüsusi minnətdarlıq bildirmək istəyirəm ki, onlar vaxt tapıb bu tədbirdə bizimlə bərabər iştirak edirlər. Onların diqqətini bizi narahat edən məsələyə də cəlb etmək istəyirəm. O da bölgədə gərginlik yaradan, çox böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır.

Biz uzun illər ərzində çalışırıq ki, məsələ öz həllini sülh yolu ilə, danışıqlar yolu ilə, beynəlxalq hüquq əsasında tapsın. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın torpaqlarından çıxarılmasını tələb edir. Ancaq Ermənistan tərəfi buna məhəl qoymur.

Bu yaxınlarda BMT Baş Məclisində Azərbaycanın işğal olunmuş torpaqlarında vəziyyətlə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş qətnamə böyük səs çoxluğu ilə qəbul edilmişdir. Mən bu fürsətdən istifadə edib bizim qətnaməmizi dəstəkləyən ölkələrin

nümayəndələrinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bununla bərabər, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM və digər mötəbər beynəlxalq təşkilatlar bu məsələnin yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmasının mümkünlüyü haqqında bəyanatlar, qərarlar vermişdir. Amma məsələ öz həllini tapmır. Ermənistanın işğalçı siyasəti, azərbaycanlılara qarşı soyqırımı siyasəti - Xocalı soyqırımı, etnik təmizləmə siyasəti 1 milyondan artıq azərbaycanlının öz doğma torpaqlarından didərgin düşməsinə səbəb olmuşdur, minlərlə soydaşımız, günahsız insanlar həlak olmuşdur. Etnik təmizləmə siyasəti nəticəsində bu insanlar bu gün elementar insan hüquqlarından məhrumdurlar. İşğal olunmuş torpaqlarda - Dağlıq Qarabağda və onun ətrafındakı 7 rayonda bütün binalar dağıdılıbdır. Bizim mədəni abidələrimiz, əcdadlarımızın məzarları, məktəblər, xəstəxanalar, yollar - hər şey dağıdılıb, hər şey talan edilibdir. Bir neçə il bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş bölgələrə səfər etmişdir və onların məruzəsində dediyim bütün məsələlər öz əksini tapmışdır. Ancaq nədənsə beynəlxalq ictimaiyyət bu məsələyə biganə qalır.

Bir daha demək istəyirəm, biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma bu həll ədalətli həll olmalıdır. Kiminsə əsaslanmamış istəkləri əsasında olmamalıdır. Beynəlxalq hüquq əsasında olmalıdır. Beynəlxalq hüquq bütün ölkələrə şamil edilməlidir. Əks-təqdirdə, dünyada, dünya birliyində xaos yaranar. Əgər ölkələr beynəlxalq hüquqa məhəl qoymasalar, onda beynəlxalq təşkilatların fəaliyyəti şübhə altına düşür. Beynəlxalq təşkilatlar, hansılar ki, bu məsələyə dair öz qərarlarını açıqlayıblar, onlar özlərinə hörmət etməlidirlər və işğalçı dövlətdən tələb etməlidirlər ki, o, işğala son qoysun. Azərbaycana məxsus olan və bütün dünya birliyi tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınan bölgələrdən çıxsınlar və o zaman bölgədə sülh yarana bilər. Əks-təqdirdə, təhlükələr ancaq artacaq, gərginlik artacaq. Bu münaqişə yalnız Azərbaycana, yaxud da Ermənistana aid deyil. Bütün bölgənin təhlükəsizliyi, bölgədə çox vacib, regional layihələrin və əməkdaşlıq imkanlarının qarşısında dayanan böyük bir maneədir.

Mən sadəcə olaraq, bütün xarici qonaqlar qarşısında öz mövqeyimi bir daha açıqlamaq istəyirəm. Bir daha demək istəyirəm ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında öz həllini tapa bilər. Ermənistanın bütün qoşunları işğal olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Ondan sonra Dağlıq Qarabağda yaşayan ermənilərin və ora qayıdacaq azərbaycanlıların birgə yaşaması üçün lazımi tədbirlər görülməlidir və o bölgəyə yüksək özünüidarəetmə muxtariyyət statusu verilməlidir. Bu, beynəlxalq hüquq əsasında özünü artıq müxtəlif yerlərdə tapmış bir yanaşmadır. Bu yanaşma yeganə düzgün yanaşmadır. Mən çox şadam, beynəlxalq təşkilatlar bizim mövqeyimizi müdafiə edirlər. Amma, eyni zamanda, qəbul edilmiş bu qərarlar kifayət deyil ki, məsələ öz həllini tapsın.

Bir daha demək istəyirəm, biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Amma bununla bərabər bölgədə yaranmış reallıqları da qarşı tərəf anlamalıdır. İqtisadi, hərbi, siyasi cəhətdən Azərbaycan son illər ərzində böyük irəliləyişə nail olubdur. Bir daha demək istəyirəm ki, beynəlxalq hüquq normaları da bizim tərəfimizdədir.

Mən bu məsələyə xüsusilə toxundum. Çünki bizim qarşımızda duran böyük problemlərdən əsası və bəlkə də yeganə problem bu problemdir. Mən beynəlxalq birliyi, burada müxtəlif ölkələrin parlamentlərinin nümayəndələrini çağırıram ki, onlar öz ölkələrində bu məsələni diqqətdə saxlasınlar və sülhü yaxınlaşdıra biləcək addımlar atsınlar.

Mən vaxtınızı çox almaq istəmirəm. Bu gün bizim qonaqlarımız öz ürək sözlərini deyəcəklər. Sadəcə olaraq, bir daha demək istəyirəm ki, parlamentin yaranmasının 90 illik yubileyi çox böyük hadisədir, Azərbaycanda bayramdır. Biz öz dövlətçilik ənənələrimizi 1991-ci ildə bərpa etdik, 1993-cü ildə isə müstəqil Azərbaycanın quruculuğu üçün bütün lazımi tədbirlər görülübdür. Bu gün dövlət quruculuğu, dövlətçilik imkanları Azərbaycanda genişlənir.

İlk demokratik respublika iki il yaşadı, müstəqilliyi qoruya bilmədi. Bugünkü Azərbaycan 17 ildən çoxdur müstəqil ölkə kimi yaşayır və əbədi yaşayacaqdır!



Prezidentin çıxışı alqışlarla qarşılandı. Sonra yubiley tədbirində qonaqlar çıxış etdilər. Onlar təbrik nitqlərində Azərbaycanda son illər müşahidə olunan inkişaf və yüksəlişin, ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun, Milli Məclisin uğurlu qanunvericilik fəaliyyətinin rəhninin Heydər Əliyev siyasəti olduğunu xüsusi vurğuladılar. Şərqdə parlamentarizmin əsasını qoyan Azərbaycan parlamentinin keçdiyi tarixi yoldan və demokratiyanın inkişafına verdiyi töhfələrdən, ölkəmizin bugünkü nailiyyətlərindən bəhs etdilər. Onların tərəfindən Azərbaycanın dünyada artan nüfuzu yüksək qiymətləndirildi.

Qonaqların çıxışlarından təbrikləri və bəzi məqamları təqdim edirik.

Vadim Popov

Belorus Respublikası Nümayəndələr Palatasının sədri

Biz indicə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin geniş və məzmunlu çıxışını dinlədik. Hamımız bu çıxışın böyük təəssüratı altındayıq. İcazə verin sizi Azərbaycan parlamentinin yaranmasının 90 illiyi münasibətilə Belorus Respublikası parlamentinin deputatları adından ürəkdən təbrik edim.

Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan Milli Məclisi də Belorus parlamenti kimi yeni cəmiyyətin hüquqi bazasının yaradılması kimi çox mürəkkəb bir yol keçmişdir. Böyük əminliklə söyləmək lazımdır ki, Azərbaycan parlamenti zamanın bu sınağından çox böyük uğurla çıxdı və bu gün cəmiyyətin inkişafında ümdə rol oynayır.

Bilirsiniz ki, Belorus xalqı həmişə Azərbaycan xalqına qardaş münasibət bəsləmişdir. Bizim ümumi sərhədlərimiz yoxdur, lakin hesab edirik ki, aramızdakı münasibətlər mehriban qonşuluq münasibətləridir. Bu münasibətlər bizim üçün əzizdir və əhəmiyyətlidir. Bizim parlamentlərarası və dövlət rəhbərləri, həmçinin beynəlxalq qurumlar səviyyəsində gözəl münasibətlərimiz var. Mədəniyyət, elm və təhsil sahəsində əlaqələrimiz genişlənməkdədir. Hal-hazırda Azərbaycanda yaşayan belorusların və Belorusda yaşayan azərbaycanlıların özlərini ifadə etməyə tam imkanları vardır. Bizim ölkələr üçün prioritet məsələlərdən biri də bu münasibətləri daha da inkişaf etdirməkdir. Çünki bizim ölkələrimiz arasındakı dostluq münasibətləri xalqlarımızın həyati maraqlarına cavab verir.

Sonda sizi yubiley münasibətilə təbrik edirik və gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

Vadim Popov Belorus prezidenti Aleksandr Lukaşenkonun və baş nazir Sergey Sidorskinin salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırdı.

Milli Məclisin sədri Oqtay Əsədov Belorus Respublikası Nümayəndələr Palatasının sədri Vadim Popova Azərbaycan parlamentinin 90 illik yubileyində iştirak etdiyinə görə öz təşəkkürünü bildirdi.

David Bakradze

Gürcüstan parlamentinin sədri

Mən öz adımdan, Gürcüstan parlamenti və gürcü xalqı adından Azərbaycan parlamentinin yaradılmasının 90 illiyi ilə əlaqədar sizi səmimi qəlbdən təbrik edirəm.

1918-ci ildə Azərbaycanın İstiqlal Bəyannaməsinin elan edilməsi ilə yeni hüquqi dövlət qurulmuşdur. O, dövrdə müstəqil Azərbaycan dövləti ilə eyni bir vaxtda Gürcüstan Respublikası da yaradılmışdır. Bizim ölkələrin tarixi kimi, parlamentlərimizin tarixi də oxşardır. Təəssüflər olsun ki, dünyanın o zamankı qüvvələr nisbəti bizim ölkələr üçün əlverişsiz idi və bir neçə il keçməmiş qırmızı ordunun müdaxiləsi nəticəsində bizim dövlətlərimizin müstəqilliyinə son qoyulmuşdur. Tarixi ədalətin bərpa edilməsi isə 70 ildən sonra baş verdi, xalqlarımız yenidən müstəqilliyə qovuşdu. Azərbaycan xalqı bu gün öz Milli Məclisi ilə fəxr edə bilər.

Təməli Azərbaycanın Ümummilli lideri cənab Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Gürcüstan əməkdaşlığı hazırda çox böyük sürətlə inkişaf edir. Məhz Heydər Əliyevin səyləri nəticəsində iki ölkə arasındakı əməkdaşlıq strateji əməkdaşlıq səviyyəsinə qalxmışdır. Onun iki xalq arasında əlaqələrin inkişaf etdirilməsində göstərdiyi böyük əməyi gürcü xalqı yüksək qiymətləndirir. Heç də təsadüfi deyildir ki, Tbilisidə Heydər Əliyev adına küçə var. Həmçinin şəhərin tarixi hissəsində onun heykəli ucaldılıb.

Cənab İlham Əliyevin səyi ilə Gürcüstan və Azərbaycan arasında siyasi, iqtisadi əlaqələr daha da sürətlə inkişaf edir və genişlənir. Ümumiyyətlə, Azərbaycan və Gürcüstan əlaqələrinin dərin tarixi kökləri vardır. Bizim xalqlar arasındakı əlaqələr hal-hazırda yeni mərhələyə keçmişdir.

Müstəqilliyimizin bərpasından sonra ikitərəfli əlaqələrimizin çox sürətli inkişafının şahidiyik. Hal-hazırda Gürcüstan və Azərbaycan arasında bütün sahələrdə sıx əməkdaşlıq mövcuddur. Bizim əməkdaşlığımız strateji əməkdaşlığa bir nümunədir. Parlamentlərarası münasibətlər də olduqca sürətlə inkişaf edir. Gürcüstanın yeni seçilmiş parlamentində ilk dostluq qrupu məhz Azərbaycan parlamenti ilə yaradılmışdır.

Mən qəti əminəm ki, Azərbaycan və Gürcüstanın gələcəyi olduqca parlaqdır. Çünki həyata keçirilən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi beynəlxalq miqyaslı layihələr hər iki ölkənin xalqlarının gələcəkdə yüksək rifahını təmin edəcəkdir. Bizim məqsədlərimiz ümumidir. Biz bütövlükdə Qara dəniz və Xəzər dənizi hövzəsində sülhü, əmin-amanlığı bərqərar etmək istəyirik. Çıxışımın sonunda bizi dəvət etdiyinizə görə təşəkkür etmək istəyirəm. Sizi bir daha Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan parlamentinin sədri David Bakradzeni qəbul etdi. Qəbulda beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın, eləcə də birgə iqtisadi layihələrin həyata keçirilməsinin ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsinə böyük töhfə verdiyi qeyd olundu.

Yubiley tədbirlərində iştirak edən Gürcüstan parlamentinin nümayəndə heyəti Azərbaycan qonaqpərvərliyindən razı qaldı.

Müasir dünyada ölkələr arasında münasibətlərdə parlamentlərarası əlaqələrin çəkisi getdikcə artır.

Kasım-Jomart Tokayev

Qazaxıstan Respublikası Senatının sədri

Qazaxıstan Respublikası parlamentinin deputatları adından Azərbaycanın ilk milli parlamentinin yaranmasının 90 illik yubileyi münasibətilə sizi təbrik edirəm. Azərbaycan Respublikasının və milli parlamentinin 90 illik yubileyi bir daha göstərir ki, Azərbaycan xalqı siyasi hakimiyyətə və azadlıq dəyərlərinə olduqca böyük əhəmiyyət verir. Əsrlər boyu xalqlarımız bir arzu ilə yaşayıblar. Onlar müstəqil bir dövlətə malik olmaq istəyiblər. Bizim dövlətlərin tarixi yolu çox məşəqqətli olmuşdur. Müstəqillik əldə etdikdən sonra Azərbaycan inamla davamlı inkişaf yoluna qədəm qoymuşdur. Hal-hazırda isə sizin ölkəniz Qafqaz regionunda iqtisadi göstəricilərə və sosial təminatına görə lider mövqeyindədir.

Müasir Azərbaycanın uğurları haqqında danışanda biz mütləq Azərbaycanın dahi oğlu, böyük dövlət xadimi Heydər Əliyevə öz hörmətimizi ifadə etməliyik. O, XX əsrin siyasi tarixində istedadlı rəhbər və böyük siyasətçi kimi öz mövqeyini tutmuşdur. Çətin bir şəraitdə gənc dövlətin rəhbərliyinə keçən Heydər Əliyev Azərbaycanı dünya ictimaiyyətinə tanıtmış, tarixi baxımdan qısa bir müddət ərzində ölkədə sabitliyə və çiçəklənməyə nail olaraq onu dünya ölkələrinin qabaqcılları sırasına daxil edə bilmişdir. O, yeni Azərbaycan quruculuğunun möhkəm və sarsılmaz təməlini yaratmışdır. Ölkənin əldə etdiyi nailiyyətlər Heydər Əliyevin adı ilə bağlıdır. Bu nailiyyətlər hal-hazırda Prezident İlham Heydər oğlu Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının hazırkı rəhbəri həm daxildə, həm də xaricdə böyük hörmətə, nüfuza malikdir və dövləti inamlı inkişaf yolu ilə irəli aparır.

Mərkəzi Asiyanın lider ölkəsi olan Qazaxıstan və onun rəhbəri, prezident Nursultan Nazarbayev Azərbaycanla əlaqələrə çox böyük önəm verir.

Azərbaycanla Qazaxıstanı Xəzər dənizi birləşdirir. Bu gün Azərbaycan Xəzər regionunda Qazaxıstanın strateji əməkdaşıdır. Bizim ölkələrimiz iqtisadi, siyasi, təhlükəsizlik sahəsində sıx əməkdaşlıq edir. Qazaxıstan və Azərbaycan razılaşdırılmış tranzit siyasəti həyata keçirir və Xəzər dənizi hövzəsinin təbii resurslarının müdafiəsi sahəsində birgə fəaliyyət göstərirlər. Bundan əlavə Qazaxıstan və Azərbaycan gələcəkdə ikitərəfli əlaqələrin genişləndirilməsində niyyətlidir. Bu fikirlər Azərbaycan Prezidentinin keçən ilin avqustunda Qazaxıstana etdiyi rəsmi səfəri zamanı xüsusilə vurğulanmışdır. Bu zaman bir çox yeni sazişlər imzalanmışdır ki, həmin sazişlər ikitərəfli faydalı münasibətlərin daha da genişlənməsinə şərait yaradır.

Parlamentlərimiz səviyyəsində əlaqələrimiz getdikcə yüksəlməkdədir. Parlamentlər siyasi dialoqun möhkəmləndirilməsində, iqtisadi, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsində böyük rol oynayırlar. Qazaxıstan parlamenti Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Parlamentimiz Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə neftin nəqli barədə Azərbaycanla Qazaxıstan arasında bağlanmış müqaviləni ratifikasiya edib. Bu müqavilə ölkələrimizin gələcək iqtisadi inkişafına, beynəlxalq enerji sisteminə inteqrasiya etməsinə təkan verəcək. Qazaxıstan Azərbaycanın hər bir nailiyyətinə ürəkdən sevinir və biz sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

Qazaxıstan Senatının sədri Kasım-Jomart Tokayev Qazaxıstan prezidenti Nursultan Nazarbayevin salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırdı.

Qazaxıstan Senatı sədrinin bu səfəri Azərbaycan-Qazaxıstan münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək.

Ölkələrimizi səmimi münasibətlər və dostluqla yanaşı tarixi oxşarlıq da birləşdirir.

Muhammadmian Sumro

Pakistan İslam Respublikası Senatının sədri

Pakistan parlamentinin nümayəndə heyəti bu əlamətdar tədbirdə iştirak etməkdən böyük məmnunluq duyur. Mən və mənimlə Pakistandan gələn nümayəndə heyəti sizi səmimi qəlbdən təbrik edir və Pakistan rəhbərliyinin, Pakistan parlamentinin təbriklərini, xoş arzularını Azərbaycan rəhbərliyinə, parlamentinə və xalqına çatdırırıq.

Bu gün biz Azərbaycan parlamentinin yaradılmasının 90 illiyini qeyd edirik. Əsası əcdadlarımız tərəfindən qoyulmuş parlamentin bizim üçün əhəmiyyəti olduqca böyükdür.

Hamımıza məlumdur ki, parlamentin müasir dövrdə inkişaf etdirilməsində cənab Heydər Əliyevin böyük rolu olmuşdur. Bu proses hal-hazırda cənab Prezident İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə həyata keçirilir. Biz cənab Prezidentin geniş məzmunlu çıxışını diqqətlə dinlədik və onun vacib məsələləri necə diqqətdə saxladığının şahidi olduq. Pakistan Azərbaycanla çox yaxın münasibətlərə malikdir və biz bu münasibətləri daha da yaxşılaşdırmaq istərdik. Bundan sonra ölkələrimiz arasındakı əlaqələrin daha da möhkəmləndirilməsi və əsas beynəlxalq məsələlər ətrafında ortaq fikrə gəlmək üçün birgə işləməyimiz vacibdir. Dağlıq Qarabağ məsələsində Pakistan Azərbaycanı dəstəkləyir və dəstəkləməyə davam edəcək. Sizin Pakistana verdiyiniz dəstəyi də yüksək qiymətləndiririk.

Çox sağ olun ki, bizi bu əlamətdar tədbirə dəvət etmisiniz. Azərbaycan Respublikasının və parlamentinin 90 illik yubileyini təbrik edirik.

Azərbaycanla Pakistan arasında münasibətlər uğurla inkişaf edir və iqtisadi sahədə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olan Pakistan İslam Respublikasına ölkəmizdə böyük rəğbət bəslənir.

Boqdan Boruseviç

Polşa Respublikası Senatının sədri

Mənim üçün Polşa Respublikasını Azərbaycan parlamentinin 90 illiyi ilə bağlı yubileyində təmsil etmək böyük şərəfdir. 1918-ci ilin mayında Azərbaycan Milli Şurası tərəfindən Azərbaycan Demokratik Respublikasının elan edilməsi əsaslı dönüş yaradan mühüm tarixi hadisədir. Azərbaycan dünyada demokratik prinsipləri rəhbər tutaraq xalqların öz müqəddəratını təyin etmək hüququnu İstiqlal Bəyannaməsində bəyan edən, milli, dini mənsubiyyətinə, cinsinə və sosial vəziyyətinə fərq qoymadan vətəndaşların hüquq və azadlıqlarını tanıyan ilk müsəlman ölkəsidir. Azərbaycan Milli Şurasının öz milli hökumətini yaratmasından bir neçə ay sonra – 1918-ci ilin noyabrında Polşa 123 il əvvəl itirdiyi müstəqilliyini yenidən əldə etdi. Azərbaycan isə artıq o zaman parlamentini yaradırdı. Gənc Azərbaycan Demokratik Respublikası ilk qədəmlərini atarkən o vaxtkı parlament üzvlərinin vətənpərvərliyi, dönməz siyasi iradəsi həm 90 il bundan qabaq, həm də indiki dövr üçün böyük örnəkdir. Müstəqilliyin ilk illərində qazanılmış ağır sınaqlar dövrünün təcrübəsi böyük əhəmiyyət daşıyır. Bu təcrübə Polşa xalqının da başına gəlib.

XX əsrin 80-ci illərinin sonlarında bizim ölkələrimiz müstəqillik və demokratiya yolunda yeni səhifələr açdı. Bu gün Azərbaycan və Polşa gələcəyə doğru inamla irəliləyir. Bizim ölkələri ümumi təcrübə, oxşar tarix, möhkəm dostluq və strateji əməkdaşlıq birləşdirir. Hələ keçən əsrin əvvəllərində Azərbaycanla Polşa arasında olan sıx əlaqələrin izlərinə Bakı şəhərinin binalarında da tez-tez rast gəlmək olar.

Bu gün bizi ümumi siyasi, iqtisadi və enerji layihələri birləşdirir və bu bizim müstəqilliyimizi daha da möhkəmlədir. Polşa Azərbaycanın Avropaya inteqrasiya etmək cəhdlərini dəstəkləyir. 90 il bundan əvvəl baş vermiş bu tarixi hadisələri yada salaraq mən Azərbaycan parlamentini yubileylə əlaqədar təbrik edirəm. İcazə verin dinamik inkişaf edən Azərbaycanda gələcəkdə də dəyişikliklərin ən böyük dayağının onun parlamenti olacağına inandığımı ifadə edim.

Azərbaycanın dövlət başçısı tərəfindən qəbul edilən Polşa Senatının sədri Boqdan Boruseviç Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya sonuncu səfərinin uğurlu keçdiyini xatırlatdı və bu səfərin ikitərəfli əlaqələrin gələcəkdə daha da genişlənməsi üçün yaxşı əsas yaratdığını bildirdi.

Azərbaycan və Polşanı ümumi təcrübə, oxşar tarix, möhkəm dostluq və strateji əməkdaşlıq birləşdirir.

Parlament diplomatiyası dünya xalqlarını bir-birinə daha da yaxınlaşdırır.

Marian Lupu

Moldova Respublikası parlamentinin sədri

Azərbaycan parlamentinin yaradılmasının 90 illiyi münasibətilə Moldova Respublikası adından Azərbaycan xalqını təbrik edirəm və təbrikimi Azərbaycan dilində də səsləndirmək istəyirəm: "İcazənizlə Moldova Respublikası parlamenti adından və şəxsən öz adımdan 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Milli Məclisini, zalda əyləşənləri və Azərbaycan xalqını ən səmimi arzularımla təbrik edir, gələcəkdə uğurlar, can sağlığı, firavanlıq və inkişaf arzulayıram".

Azərbaycan parlamentinin 90 illik yubileyi bizi keçmişə nəzər salmağa sövq edir. Bu illər ərzində görülən işlərə baxsaq görərik ki, parlament vətəndaş hüquqlarının qorunması sahəsində, məhkəmə, hüquq sistemində aparılan islahatlar sahəsində, iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə edib. Beynəlxalq aləmdə Milli Məclis özünü ciddi bir portnyor kimi nümayiş etdirib. Bu partnyor milli siyasətini müvəffəqiyyətlə həyata keçirir, parlamentlərarası əməkdaşlıq təcrübəsini dialoq formatında qurur ki, bununla da sabitlik və çiçəklənməyə nail olmağa çalışır.

Hörmətli dostlarım, mən istərdim ki, Cənub-Şərqi Əməkdaşlıq Partiyası Parlament Assambleyası adından, eyni zamanda hal-hazırda Moldovanın sədrlik etdiyi Mərkəzi Avropa Təşəbbüsü Parlament Assambleyası adından öz salamlarımı çatdırım. Azərbaycan Respublikası rəhbərliyini Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası adından təbrik edirəm, çünki bu təşkilatın yaradıcılarından biri də məhz sizin parlament olmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan parlamenti Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının bir çox görüşlərinin Azərbaycanda keçirilməsini təşkil etmişdir. Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tərəfindən də bu təşkilata böyük dəstək verilirdi. Onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu təşkilatın işində yaxından iştirak edir və bu regionda əməkdaşlığın artırılmasına fəal dəstək verir.

Çıxışımın sonunda xalqımın iradəsini ifadə edərək demək istəyirəm ki, biz parlamentlərimiz arasında, ölkələrimiz arasında əlaqələrin genişlənməsinə böyük önəm veririk.

Sizi bir daha ürəkdən təbrik edirəm.

Moldova parlamentinin sədri Marian Lupunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı, ölkələrimizin bir-birinin mövqeyini dəstəkləməsini yüksək qiymətləndirdi.

Parlamentlər arasında dostluq münasibətləri sülhün möhkəmlənməsinə xidmət edir.

Nikolae Vakaroiu
Rumıniya Senatının sədri

Azərbaycan parlamentinin 90 illik yubileyi ilə əlaqədar keçirilən təntənəli mərasimdə çıxış etmək mənim üçün böyük şərəfdir. Mən Azərbaycan parlamentini və xalqını Rumıniya Senatı adından təbrik edirəm və fəaliyyətinizdə uğurlar arzulayıram. 1918-ci il mayın 28-də öz müstəqilliyini elan edən Azərbaycan Respublikası müsəlman Şərqində ilk parlamentli demokratik respublika olması ilə tarixdə mühüm rol oynamışdır. Eyni zamanda qeyd etmək istəyirəm ki, müstəqil Azərbaycan Demokratik Respublikası müstəqillik uğrunda aparılmış uzun və məşəqqətli mübarizənin nəticəsində yaranmışdır. ADR bütün vətəndaşlarının siyasi və mülki hüquqlarını müdafiə edirdi. Onlar arasında dininə, milliyyətinə, dilinə və cinsinə görə heç bir fərq qoyulmurdu. Azərbaycan islam dünyasında qadınlara səsvermə hüququ verən ilk ölkə olmuşdur.

ADR parlamenti qısa müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, çox əhəmiyyətli və tarixi qərarlar qəbul etmişdir. 1920-ci ildə Paris Sülh Konfransının iştirakçıları Azərbaycanın müstəqilliyini tanıdı. Bildiyimiz kimi, 1920-ci ildə qırmızı ordu Azərbaycanı işğal etməklə onun müstəqilliyinə son qoydu. Buna baxmayaraq, 1991-ci il 18 oktyabr tarixində Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdi və Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət oldu. Şərqi Avropada Azərbaycanın ilk səfirliyi Rumıniyada açıldı və bu da bizim ölkələr arasında olan dostluğun göstəricisidir. İki ölkə arasındakı bu dostluğu dövlət başçılarının səfərləri daha da möhkəmləndirdi.

Bir faktı qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev Rumıniyaya səfəri zamanı Buxarestdə Azərbaycanın mərhum prezidenti Heydər Əliyevin adını daşıyan parkı ziyarət etdi. Rumınların gözündə Heydər Əliyev Azərbaycan xalqının simvoludur.

Ölkələrimizin parlamentləri arasında əlaqələrlə bağlı sizi əmin edirəm ki, Rumıniya parlamenti Azərbaycanla münasibətlərin daha da genişlənməsi üçün əlindən gələni edəcək. Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıram.



Rumıniya Senatının sədri Nikolae Vakaroiunu qəbul edən Prezident İlham Əliyev Rumıniya parlament nümayəndə heyətinin Azərbaycana səfərini ölkələrimiz arasında yüksək səviyyədə münasibətlərin göstəricisi kimi dəyərləndirdi.

Rumıniya Senatının sədri Nikolae Vakaroiu ilk dəfə Azərbaycana gəlişindən razıdır.

Rumınların gözündə Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının simvoludur.

Köksal Toptan

Türkiyə Böyük Millət Məclisinin sədri

Bu gün müqəddəs bir yerdə - Milli Məclisdə mühüm tarixi başlanğıcın ildönümü münasibətilə toplaşmışıq. Bununla əlaqədar sizə Türkiyə xalqının və Türkiyə Böyük Millət Məclisinin səmimi təbrikini və xoş arzularını çatdırıram. Azərbaycan parlamentinin 90 illiyi hamımız üçün mübarək olsun.

1918-ci il mayın 28-də elan edilən Azərbaycan Xalq Cümhuriyyəti sadəcə Şərqdə ilk demokratik respublika deyildi. Eyni zamanda müasir demokratiyanın ayrılmaz prinsiplərinin parlaq təzahürü olan orqan - Azərbaycan parlamenti bu dövlətin əsas təməlini təşkil edirdi. Bu dövlətin yaradıldığını bəyan edən Azərbaycan İstiqlal Bəyannaməsi zamanında dünyanın bir çox ölkələrində olmayan, keçərliliyini bu günədək saxlayan və indi də bir çox ölkələr üçün nümunə sayıla biləcək qabaqcıl demokratik prinsiplərin təsbit olunduğu sənəddir. Bu cəhətdən Azərbaycan Xalq Cümhuriyyətinin qabaqcıl rolunu indi də təqdirlə qarşılayırıq.

XX yüzilliyin sonunda müasir Azərbaycan Respublikasının quruluşu da bu qabaqcıl təməl üzərində yüksəlmişdir.

Hörmətli Prezident, Azərbaycanla Türkiyə arasında mövcud olan bənzərsiz münasibətlər dünyaya nümunə olacaq bir səviyyədədir. Türkiyə ilə Azərbaycan bütün sahələrdə güclü və köklü əlaqələrə malikdir. Qarşılıqlı əməkdaşlığı bir mədəniyyət halına gətirən Türkiyə və Azərbaycan istər ikili münasibətlər, istər regional, istərsə də qlobal münasibətlərdə eyni şeyi düşünür, eyni şeyi həyata keçirməyə çalışır.

Möhtərəm Prezident, müasir Azərbaycan dünyada az rast gəlinəcək sürətlə inkişaf edir. Azərbaycanda görülən nəhəng işlərdən Türkiyə iftixar və qürur hissi duyur. Nəzərə almaq lazımdır ki, bu nailiyyətlər Azərbaycan torpaqlarının 20%-nin işğal edilməsi, 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətdə olması şəraitində əldə edilir. Dağlıq Qarabağ məsələsi tezliklə həll olunması vacib olan qanayan bir yaradır.

Hörmətli qonaqlar, Azərbaycan iqtisadi inkişafla paralel olaraq ictimai və siyasi sahədə də inkişaf edir. Azərbaycanın böyük lideri Heydər Əliyevin dediyi kimi: “Azərbaycanın yolu demokratiya yoludur”. Azərbaycan hökumətinin və onun dəyərli liderinin demokratikləşmə yolunda atdığı addımları Türkiyə hər zaman təqdirlə izləməkdədir.

Demokratiyanın mərkəzi və müqəddəs məbədi olan bu yüksək orqanda bir araya gəldiyimiz bu əlamətdar gündə bu gözəl mərasimi gerçəkləşdirən hörmətli Oqtay Əsədova və həmkarlarıma yubiley münasibətilə təbriklərimi və böyük hörmətimi bildirirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi qəbula görə təşəkkür edən Türkiyə Böyük Millət Məclisinin sədri Köksal Toptan bildirdi ki, biz həqiqətən Ulu öndər H.Əliyevin dediyi kimi: "Bir millət, iki dövlətik".

“Qarşılıqlı əməkdaşlığı bir mədəniyyət halına gətirən Azərbaycan və Türkiyə istər ikitərəfli, istər regional, istərsə də qlobal münasibətlərdə eyni seyi düşünür, eyni şeyi həyata keçirməyə çalışır”.

Köksal Toptan

Akja Nurberdiyeva
Türkmənistan Məclisinin sədri

Mən istedadlı və əməksevər Azərbaycan xalqına Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun, Türkmənistan Məclisinin təbriklərini və səmimi arzularını çatdırıram. Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə sizin hamınızı təbrik edirik.

Xəzər dənizinin sahillərində yaşayan Azərbaycan və türkmən xalqları əsrlərin dərinliklərindən gələn ümumi mədəni və etnik köklərə malikdir. Xalqlarımızı bir-birinə səmimi dostluq və qonşuluq telləri bağlayır.

Bu gün təyyarə ilə Xəzərin üzərindən uçarkən bir daha əmin oldum ki, Xəzər dənizi bizi ayırmır, əksinə Xəzər dənizi bizi birləşdirir.

Ölkələrimizin başçıları da xalqlarımız arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsinə böyük töhfələr verirlər. Türkmənistan prezidentinin Azərbaycana rəsmi səfəri zamanı bunun bir daha şahidi olduq. Səfər çərçivəsində Azərbaycan Prezidenti ilə aparılan danışıqlarda qeyd olunmuşdur ki, iki ölkə arasındakı əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq vacibdir.

Türkmənistan Məclisi ilə Azərbaycan Milli Məclisi arasında da gözəl münasibətlər mövcuddur. Hər iki qanunverici orqan xalqlarımız arasındakı qardaş münasibətlərin inkişaf etdirilməsində əməli işlər görür.

Əziz dostlar, icazə verin sizi bir daha Azərbaycan parlamentarizminin bu əlamətdar günü münasibətilə təbrik edim, Azərbaycan xalqına can sağlığı, sülh və əmin-amanlıq arzulayım.

Azərbaycan və Türkmənistan arasında ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf edir.

Azərbaycan və türkmən xalqlarını təkcə Xəzər dənizi deyil, həm də əsrlərin dərinliklərindən gələn ümumu tarixi köklər birləşdirir.

Heydar Əliyev

Heydar Aliyev

Təntənəli iclasın fasiləsində

Seyid Məhəmməd Əbuturabi

İran İslam Respublikası İslam Şurası Məclisi sədrinin müavini

Mən öz adımdan və İran İslam Şurası Məclisinin üzvləri adından, İran İslam Şurası Məclisinin sədri doktor Əli Lərincaninin adından Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə Azərbaycan Prezidentini, millət vəkillərini və xalqınızı səmimi qəlbdən təbrik edirəm. Azərbaycan və İran dövlətləri beynəlxalq münasibətlərdə həmişə beynəlxalq norma və prinsiplərə hörmətlə yanaşmışlar. Buna görə də xalqlar arasında qarşılıqlı hüquqlara riayət etməklə dinc yanaşı yaşamanı, regional gərginlikdən çəkinməni, transregional güclərin digər bölgələrə hər hansı bir formada təzyiq göstərməsinə qarşı çıxmağı özünün əsas prinsipləri sayaraq bu istiqamətdə regional münaqişələrin həllini və ölkələrin ərazi bütövlüyünün qorunmasını dəstəkləyirlər. Elə bu cəhətdən İran İslam Respublikası Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyır və beynəlxalq təşkilatlarda dost və qardaş Azərbaycanın mövqeyini həmişə dəstəkləyib və gələcəkdə də dəstəkləyəcək. İran İslam Respublikası belə hesab edir ki, region ölkələri arasında hər hansı bir mübahisə və gərginlik transregional güclərin müdaxiləsi üçün zəmin yaratmaqla yanaşı inkişaf və tərəqqiyə mane olur, nəticə etibarilə ölkələrin geri qalmasına gətirib çıxarır. Sonda hər iki ölkənin qanunvericilik təcrübəsindən qarşılıqlı istifadəni vurğulayaraq parlamentlərin mövcud potensialından faydalanmaq üçün parlamentlərarası əlaqələrin daha da gücləndirilməsini arzu edirəm.

Azərbaycanla İran arasında tarixin dərinliklərindən gələn möhkəm dostluq və qardaşlıq münasibətləri bu gün də uğurla davam edir.

Svetlana Orlova

Rusiya Federasiya Şurasının sədr müavini

Rusiya Federasiya Şurası adından sizi Azərbaycan parlamentinin yaradılmasının 90 illik yubileyi münasibətilə təbrik edirəm. 90 illik yubileyini keçirən Azərbaycan Respublikasının Milli Məclisi dünyanın ən müasir qanunverici orqanlarından biridir.

Rusiya imperiyasının I və II Dövlət Dumalarında ən fəal və intellektual fraksiya məhz Azərbaycan nümayəndələrinin fraksiyası idi. Bu gün hamımız Azərbaycanın müasir tarixi barədə də böyük iftixar hissi ilə söz açdıq. Biz Heydər Əliyevin fəaliyyətini dərin hörmət hissi ilə dönə-dönə xatırladıq. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev bütün qüvvəsini, biliyini, təcrübəsini öz xalqının rifahına sərf edib. Müasir Azərbaycanın malik olduğu bütün müvəffəqiyyətlər məhz onun fəaliyyətinin nəticəsidir.

Cənab İlham Əliyev, sizin nitqiniz məndə dərin təəssürat oyatdı. Azərbaycanın bu gün əldə etdiyi nailiyyətlər - ÜDM-in artımına görə birinci yerdə olmaq, islahatları davam etdirmək, təhsildə, səhiyyədə inkişaf, yoxsulluq probleminin həlli sizin adınızla bağlıdır. Bu gün Azərbaycan sabit inkişaf edən ölkəyə çevrilib.

Qeyd etmək istərdim ki, keçən həftə Azərbaycanın birinci xanımı Mehriban xanım tərəfindən təşkil olunan mədəniyyətlərarası dialoqa həsr edilən konfransda iştirak etdim. Məhz bu dialoq prinsipi məndən qabaq həmkarlarımın dönə-dönə vurğuladığı prinsipdir. Həqiqətən dünya bu gün qlobal problemləri yalnız dialoq yolu ilə həll edə bilər.

Cənab İlham Əliyev və Oqtay Əsədov, sizə Azərbaycan xalqının rifahı yolunda işlərinizdə müvəffəqiyyətlər və can sağlığı arzu edirəm.

Azərbaycanla Rusiya arasındakı bərabərhüquqlu və səmərəli əməkdaşlıq xalqlarımızın tərəqqisinə xidmət edir.

Mark Vervilgen

Belçika Krallığı Senatı sədrinin müavini

Mən sizin parlamentin 90 illik yubileyinə həsr olunmuş təntənəli iclasda iştirak etməyimdən şərəf hissi duyuram və Belçika Krallığının parlamenti, həmçinin regional parlamentlər adından sizi bu münasibətlə təbrik edirəm. Bir məsələni qeyd etmək istəyirəm ki, parlamentlərin qarşılaşdıqları problemlər demək olar eynidir. Biz daim dinc yolla azadlığımız, müstəqilliyimiz və hüquqlarımız uğrunda mübarizə aparırıq. Əlbəttə ki, yaxşı inkişaf edən iqtisadiyyatın yaradılması, təhsil sisteminin inkişaf etdirilməsi - bunlar hamısı bizim ümdə, ümumi məqsədlərimizdir. Bizim bura yığışmağımızın bir səbəbi də odur ki, hamımıza xas olan bu ümumi problemləri bir yerdə araşdıraq və birgə həll edək. Yəni bir-birimizdən öyrənək. Azərbaycan yüksək potensiala malik bir ölkədir. Ümumdaxili məhsulun artımı son beş ildə dünyada analoqu olmayan bir göstəricidir. Azərbaycana ilk səfərim zamanı mənə məlum oldu ki, Azərbaycanın çox zəngin irsi, zəngin təbii sərvətləri və mədəniyyəti var. Bütün bunların birləşdirilməsi üçün əlverişli şərait yaradılıb. Bu imkanlardan səmərəli istifadə olunmasına biz də öz tərəfimizdən kömək edə bilərik. Belə ki, bizim bu işlərdə həm təcrübəmiz, həm texnologiyamız var. Gəlin imkanlarımızı bölüşək, təcrübəmizi paylaşaq. Məhz bu şəkildə biz irəliyə doğru daha sürətli hərəkət edə bilərik. Yaddan çıxarmamalıyıq ki, biz qloballaşan bir dünyada yaşayırıq. Qlobal problemlərin həlli üçün qlobal dünyada keçərli olan həll yollarını tapmalıyıq. Ona görə də mümkün qədər çox əməkdaşlıq etməliyik. Gələcəyin də əsas sözü beynəlxalq əməkdaşlıq olacaqdır. Qeyd etmək istəyirəm ki, parlamentiniz bu sahədə səmərəli fəaliyyət göstərir. Demək olar ki, yerinə yetirilməsi müşkül olan məsələlərin də öhdəsindən gəlir. Biz bura tarixi hadisəni qeyd etməyə toplaşmışıq və sizi öz dilinizdə təbrik etmək istəyirəm: “Azərbaycan, təbrik edirəm”.

Dünya parlamentlərinin birgə əməkdaşlığı qlobal problemlərin həllində müsbət nəticələr əldə etməyə imkan yaradır.

Beriz Belkiç

Bosniya və Herseqovina Respublikası Xalq Palatası sədrinin müavini

Sizi və Azərbaycan xalqını müstəqilliyinin əldə olunmasının, həmçinin parlamentinin yaradılmasının 90 illiyi münasibətilə təbrik edirəm, Bosniya və Herseqovina parlamentinin Azərbaycan xalqına ən səmimi, xoş arzularını çatdırıram.

Hörmətli deputatlar, mən sizi və bütün dünya parlamentlərini separatizmin, zorakılığın, təcavüzün, soyqırımın bütün hallarına qarşı mübarizəyə səsləyirəm. Dünyanın bütün parlamentarilərini genosidə və etnik təmizləməyə qarşı səslərini qaldırmağa dəvət edirəm. Mən onları təcavüzün nəticələrini heç bir zaman tanımamağa çağırıram. Mən bir daha Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

Parlamentlərin birgə əməkdaşlığı və səyləri ilə yer üzündə zorakılığa, təcavüzə və etnik təmizlənmələrə qarşı effektiv mübarizə aparmaq olar.

Kristina Ojuland

Estoniya Respublikası parlamenti sədrinin müavini

Estoniyalılar Azərbaycan xalqının keçirdiyi hissləri çox yaxşı başa düşürlər. Çünki 90 il əvvəl Estoniya da öz müstəqilliyini əldə etmişdir. Estoniya 90 il bundan əvvəl Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olmuşdur. Bu heç də təsadüfi deyil. Belə ki, XX əsrin əvvəllərində Bakı dünyada ən sürətli iqtisadi inkişaf nümayiş etdirirdi. Yüzlərlə Estoniya iş adamı o zaman Bakıda fəaliyyət göstərirdi. Yəni hələ 90 il əvvəl Estoniya xalqı və Azərbaycan xalqı bir-birini yaxşı tanıyırdılar və çox yaxın idilər. XX əsrin 90-cı illərində yenidən müstəqilliyin bərpa olunması bütün millətlər üçün çox böyük əhəmiyyət kəsb edirdi. O vaxt Estoniya prezidenti ilə Azərbaycan Prezidenti cənab Heydər Əliyev ölkələrimiz arasında sıx əlaqələr yaratmışdılar. İndi estoniyalılar Azərbaycan xalqını təbrik edirlər. Azərbaycan hal-hazırda ən yüksək iqtisadi göstəricilər nümayiş etdirən bir ölkədir. Parlamentin 90 illik yubileyi çox əhəmiyyətli bir hadisədir. Azərbaycan parlamenti qanunvericilik sahəsində olduqca böyük rol oynamışdır. Biz bilirik ki, Azərbaycanın qarşısında hələ bir çox həll olunmamış məsələlər dayanır və bu məsələlərin həllində Azərbaycanın dost ölkələrin dəstəyinə ehtiyacı var. Mən buradan bəyan etmək istərdim ki, bizim dəstəyimiz həmişə sizinlədir. Azərbaycan getdikcə Avropa İttifaqına yaxınlaşır. Yaddan çıxarmaq lazım deyil ki, türk sivilizasiyası çox yüksək inkişafa malik olmuşdur. Hələ Roma imperiyasının vaxtında türk mədəniyyəti çox güclü idi. Mən bütün Estoniya xalqı adından Azərbaycan xalqını parlamentlərinin 90 illiyi münasibətilə təbrik edirəm. Həmçinin Estoniyada minlərlə azərbaycanlı yaşayır və mən onların hamısının adından sizi təbrik edirəm.

Azərbaycan və Estoniya arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsində parlamentlərarası əməkdaşlığın da əhəmiyyəti böyükdür.

Zeljka Antunoviç

Xorvatiya Respublikası parlamenti sədrinin müavini

Hər şeydən əvvəl mən bu yubiley münasibəti ilə sizi Xorvatiya parlamenti adından təbrik etmək istəyirəm. Xorvatiya ilə Azərbaycan arasında mövcud olan dostluq əlaqələri dinamik şəkildə inkişaf edir. Bu münasibətlər hələ cənab Heydər Əliyevin hakimiyyəti dövründə yaradılmış və hazırkı dövrə qədər də həmin münasibətlər müvəffəqiyyətlə davam etdirilir.

Azərbaycanın nailiyyətləri Xorvatiya xalqına yaxşı məlumdur. Azərbaycanın əldə etdiyi həm siyasi, həm iqtisadi uğurlar Xorvatiya tərəfindən daim izlənir. Həyata keçirilən siyasət nəticəsində Azərbaycan regionda üstün mövqeyə malikdir. Biz yaxşı basa düşürük ki, sizin qarşınızda bəzi problemlər dayanır. Bu problemlər Xorvatiyaya da tanışdır.

Xorvatiya parlamentinin nümayəndə heyəti ilk dəfədir ki, Azərbaycana səfər edir. Elə ilk gündən məşhur Azərbaycan qonaqpərvərliyi ilə qarşılaşdıq.

Biz əminik ki, ölkə parlamentlərinin əlaqələrini genişləndirmək üçün əlimizdə geniş imkanlar var. İnanıram ki, bu səfər iki ölkə arasındakı dostluğu daha da möhkəmləndirəcək.

Bizi bu yubileyə dəvət etdiyiniz üçün sizə öz minnətdarlığımızı bildiririk.

Azərbaycanın dinamik inkişafı, əldə etdiyi siyasi və iqtisadi uğurlar Xorvatiya tərəfindən diqqətlə izlənir.

Tahir əl-Masri

İordaniya Haşimilər Krallığı Senatı sədrinin I müavini

İordaniya Millət Məclisi və İordaniya xalqı adından burada iştirak edənləri bu gözəl gün münasibətilə təbrik edirəm. Biz çox şadıq ki, bu xoş gündə sizinləyik və sizinlə bu sevinci bölüşürük.

Bu gün Prezidentin burada iştirak etməsi Azərbaycanda Prezidentlə parlament arasında olan gözəl münasibətin göstəricisidir.

Prezident İlham Əliyev və İordaniya kralı arasında olan qardaş münasibətlər də iki xalq arasında yaxın əlaqələrin inkişaf etdirilməsində mühüm rol oynayır, iki xalqı birləşdirən tarixi əlaqələrin və münasibətlərin gələcəkdə də inkişaf etdiriləcəyindən xəbər verir. Biz də öz növbəmizdə hər iki rəhbərin siyasətini davam etdirəcəyik, ölkələrimiz və parlamentlərimiz arasında olan dost münasibətlərini daha da inkişaf etdirəcəyik. Dəvət üçün sizə öz dərin minnətdarlığımızı bildiririk, Azərbaycan xalqına və onun rəhbərliyinə böyük müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan və İordaniya arasında əlaqələrin inkişafında dövlət başçılarının xüsusi rolu var və hər iki ölkənin parlamentləri bu gözəl ənənələri davam etdirirlər.

Həm mədəni, həm də iqtisadi cəhətdən bir-birinə bağlı olan Azərbaycan və Küveyt xalqları arasındakı əlaqələrin genişlənməsində parlamentlərarası əməkdaşlıq böyük töhfələr verir.

Fəhd Diheysan əl-Meean

Küveyt parlamenti sədrinin müavini

İcazə verin Küveyt xalqı adından, Küveyt rəhbərliyi və parlamenti adından, şəxsən öz adımdan sizi bu əlamətdar gün münasibətilə təbrik edim. Bizim üçün təşkil edilmiş gözəl qarşılanmaya görə, Bakıya gələndən bəri bizə göstərilən böyük diqqətə görə təşəkkürümüzü bildiririk.

Ölkələrimizi birləşdirən əlaqələr çoxdan mövcuddur. Bu iki qardaş xalq həm mədəni, həm də iqtisadi cəhətdən bir-biri ilə bağlıdır. Həmçinin bizim qarşılıqlı səfərlərimiz, keçirdiyimiz görüşlər xalqlarımızı daha da yaxınlaşdırır. Xüsusən ölkə rəhbərlərinin görüşlərində əldə olunan razılaşmalar dövlətlərimizin əlaqələrinin inkişaf etdirilməsində mühüm rol oynayır. Bu əlaqələr xalqlarımızın inkişafına böyük təkan verir.

Hörmətli cənab Prezident, cənab sədr, hörmətli qonaqlar! Sonda sizin hamınızı bir daha təbrik edirəm, Azərbaycana çiçəklənmə və inkişaf yolunda uğurlar arzulayıram.

Çolpon Bayekova

Qırğız Respublikası Ali Şurası sədrinin müavini

İcazənizlə Qırğız Respublikası parlamentinin deputatları və onun sədri adından Azərbaycan parlamentini bu əlamətdar yubiley münasibətilə təbrik edirəm.

90 il qabaq Azərbaycan parlamentarizminin əsası qoyulub, vətəndaşların hüquq və azadlıqlarına əsaslanan müstəqil dövlət yaranıb. Bugünkü Azərbaycan parlamenti də 90 il qabaq əsası qoyulan parlamentarizm ənənələrini layiqincə davam etdirərək zamanın bütün çağırışlarına cavab verir.

Mən dəfələrlə Azərbaycana səfər etmişəm. Bu səfərlərimdə burada baş verən böyük dəyişikliklərin şahidi olmuşam. Mən bu tribunadan müşahidə etdiyim nailiyyətlərə öz hörmətimi bildirmək istəyirəm və onların davam etməsini, çoxalmasını arzulayıram. Dəvət üçün təşəkkür edirəm və yubiley münasibətilə bir daha təbrik edirəm.

Azərbaycana təşrif buyuran hər bir qonaq ölkəmizin sürətli tərəqqisinin,
inkişaf etmiş dünya birliyinə inteqrasiya kursunun bilavasitə şahidi olurlar.

Vineta Muizniece

Latviya Respublikası Seymi sədrinin müavini

Əvvəlcə Azərbaycan parlamentinin yaranmasının 90 illik yubileyi münasibətilə keçirilən bu təntənəli mərasimə bizi dəvət etdiyiniz üçün təşəkkür edirik.

Xalqlarımızın tarixində bir çox oxşarlıqlar və paralellər var. XIX-XX əsrlərdə bizim ölkələrimizin xalqları öz müqəddəratlarını həll etmək, mədəniyyətlərini, milli mənliklərini, ana dilini qorumaq uğrunda mübarizə aparmışlar.

Bu il noyabrın 18-də Latviya da 90 il bundan öncə yaratdığı respublikanın yubileyini qeyd edəcək.

Azərbaycan və Latviya xalqları arasında uzun müddətdir ki, dostluq münasibətləri davam edir. Yaxın dostluq münasibətləri eyni zamanda ölkələrimizin parlamentləri arasında da mövcuddur. Xüsusilə parlamentlərarası dostluq qrupları çərçivəsində biz sıx əməkdaşlıq edirik.

Çıxışımın sonunda böyük qonaqpərvərliklə qarşılandığımıza görə təşəkkürümüzü bildiririk. Arzu edirik ki, əldə etdiyiniz nailiyyətlər davam etsin və bizim ölkələr arasında olan əlaqələr daha da genişlənsin.

Azərbaycan xalqı kimi Latviya xalqı da 90 il əvvəl öz azadlığı uğrunda mübarizə aparmış və müstəqil dövlətini qurmuşdur.

Bu gün dünya ölkələrinin inkişafında, qlobal problemlərin həllində parlamentlərin rolu yüksəlir.

Nurdin Moudian

Mərakeş Krallığı Nümayəndələr Palatası sədrinin I müavini

Sizi Mərakeş Krallığı Nümayəndələr Palatası adından Azərbaycan parlamentinin yaradılmasının 90 illiyi münasibətilə təbrik edirəm və bizi bura dəvət etdiyiniz üçün sizə öz minnətdarlığımı bildirirəm.

Mən son vaxtlar parlament diplomatiyasının güclənməsi məsələsini qeyd etmək istərdim. Bu diplomatiya artıq rəsmi diplomatiya olmaqla bütün istiqamətləri ehtiva edir. Parlament üzvləri müxtəlif sahələrdə xalqlar arasında əlaqələrin inkişafına öz töhfələrini verirlər. Bu gün parlamentlər həqiqətən də xalqların taleyi ilə bağlı böyük məsuliyyət daşıyırlar.

Cənab sədr, bu gözəl tədbiri təşkil etdiyiniz üçün sizə minnətdarlığımı bildirir və gələcək fəaliyyətinizdə böyük nailiyyətlər arzulayıram. Təbii ki, bu təkcə mənim adımdan deyil, həm də qardaş Mərakeş Krallığı və onun rəhbərliyi adındandır. Bir daha Azərbaycan parlamentini bu xoş gün münasibətilə təbrik edirəm.

Zeynəb Ridvan

Misir Ərəb Respublikası Şura Məclisi sədrinin I müavini

Əvvəlcə dəvət üçün sizə təşəkkürümü bildirirəm və Misir parlamentinin salamlarını sizə çatdırıram. Azərbaycanla Misir arasında əlaqələr çox yüksək səviyyədədir. Azərbaycan parlamenti qarşısına qoyduğu məsələlərin həllində böyük nailiyyətlər əldə etmişdir. Azərbaycan parlamenti demokratik prinsiplərin həyata keçirilməsi baxımından başqa parlamentlərə nümunə ola bilər. Mən şadam ki, Azərbaycanla Misir arasında olan əlaqələr siyasi, iqtisadi, mədəni və təhsil sahələrini əhatə edir. Burada Azərbaycan - Misir müştərək komissiyasının rolunu qeyd etmək istərdim. Bu cəmiyyət hər iki ölkənin mənafeyini həyata keçirməkdə böyük rol oynayır.

Burada təbii ki, hər iki ölkə rəhbərinin - cənab İlham Əliyevin və Hüsni Mübarəkin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsindəki fəaliyyətini qeyd etmək lazımdır. Eyni zamanda qeyd edim ki, ölkələrimiz arasında əlaqələrin daha da inkişafında Misir hökuməti və xalqı maraqlıdır. Hər iki tərəf bu əlaqələrin əhəmiyyətini başa düşür və onların inkişaf etdirilməsi üçün əlindən gələni edir.

Sonda Azərbaycan parlamentinə öz fəaliyyətində uğurlar arzu edirəm.

Misir və Azərbaycan arasında dostluq əlaqələrinin inkişafında hər iki ölkənin dövlət başçıları böyük rol oynayırlar.

Səfər Səfərov

Tacikistan Respublikası Nümayəndələr Palatası sədrinin I müavini

Hər şeydən əvvəl Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədova bizi bu təntənəli mərasimə dəvət etdiyi üçün təşəkkür etmək istəyirəm. Mən məmnuniyyətlə həmkarlarım tərəfindən Azərbaycan Respublikası parlamentinin 90 illik yubileyi münasibətilə səslənən bütün təbriklərə qoşuluram.

Bu təntənəli gündə Azərbaycanın Ümummilli lideri, siyasətin patriarxı adlandırıla biləcək Heydər Əliyevin ruhuna öz hörmətimizi bildirməliyik. Çünki o, müasir Azərbaycan dövlətinin və parlamentinin yaradılmasında, ölkələrimiz və parlamentlərimiz arasında dostluğun möhkəmləndirilməsində böyük rol oynamışdır.

Azərbaycanla Tacikistan arasında parlamentlərarası münasibətlər dərin tarixi köklərə malikdir. Zaman keçdikcə bizim münasibətlərimiz daha da dərinləşir. Bu gün yenidən əmin olduq ki, Azərbaycanla Tacikistan arasında münasibətlər ən yüksək səviyyədədir, əməkdaşlığımız bütün sahələri əhatə edir və parlaq gələcəyə sahibdir.

İcazə verin bizim parlament rəhbərliyinin və deputatlarının salamlarını sizə çatdırım. Onlar sizi Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirlər.

Azərbaycanla Tacikistan arasında dərin tarixi köklərə malik münasibətlər zaman keçdikcə daha da dərinləşir.

Elsa Papademetriou

Yunanıstan Respublikası parlament sədrinin müavini

Bu müqəddəs yerdə, bu təntənəli mərasimdə iştirak etmək, burada çıxış etmək mənim üçün böyük şərəfdir. Azərbaycanın siyasi həyatında mühüm rol oynayan Milli Məclisdə Azərbaycan parlamentarizminin 90 illiyini qeyd etməyə yığışmışıq. Bir əsrə yaxındır ki, Azərbaycanın İstiqlal Bəyannaməsi səslənmişdir. Uzun illər boyu üzləşdiyi çətinliklərə baxmayaraq, Azərbaycan xalqı demokratik prinsiplərə, öz müqəddəratını təyinetmə prinsipinə, dinc yanaşı yaşama prinsipinə sadiq qaldığını bir daha nümayiş etdirmişdir. Əlbəttə, bu məqsədlərə çatmaq üçün siyasi liderlərin rolu böyük olmuşdur. Azərbaycan və Yunanıstan tarixən dostluq münasibətlərinə malikdir. Bu əlaqələr qarşılıqlı səfərlər nəticəsində daha da möhkəmlənmişdir. Mən Azərbaycanın parlament nümayəndə heyətinin Avropa Şurasındakı yüksək fəaliyyətini də xüsusi qeyd etmək istəyirəm. Eyni zamanda cənab sədr, sizə təşəkkür edirəm ki, Avropa Şurasında Azərbaycan parlament nümayəndə heyətində gender balansını saxlamısınız.

Hörmətli həmkarlarım, müasir dövr bir çox çağırışlarla əlamətdardır. Biz, əlbəttə ki, tarazlı inkişafı dəstəkləməyə çalışırıq. Gəlin bu sahədə birgə fəaliyyət göstərək və təhlükəsiz, demokratik, sülh və inkişaf üzərində ucalan yeni dünya quraq.

Azərbaycan Respublikasının Milli Məclisi demokratik prinsiplərin həyata keçirilməsi baxımından nümunə göstərilə biləcək parlamentlərdən biridir.

Gintaras Stepanoviçius

Litva Respublikası parlamenti sədrinin müavini

Mən Litva parlamenti adından Azərbaycan parlamentinin 90 illik yubileyi ilə əlaqədar Milli Məclisin deputatlarını təbrik edirəm. Bu mərasimi yüksək səviyyədə təşkil etdiyinizə görə, yüksək qonaqpərvərliyə görə sizə öz dərin təşəkkürümü bildirirəm.

Bu gün Azərbaycanda yaşanan hisslər Litvaya da tanışdır. Xalqlarımız 90 il bundan əvvəl öz müstəqilliyi, milli mənliyinin qorunması, dövlətçiliyi uğrunda demək olar eyni mübarizə yolu keçib. 90-cı illərin əvvəllərində biz öz iradəmizi yenidən ifadə edərək müstəqilliyimiz uğrunda ayağa qalxdıq və bu yolda bir çox qurbanlar verdik. Bu mübarizə bizə bir daha açıq göstərdi ki, xalqın iradəsi hər şeydən yüksəkdir. Bu gün burada məhz həmin iradə təntənəli şəkildə qeyd olunur.

Hal-hazırda bizim müstəqil ölkələrimiz yaxından dostluq edir və biz bu dostluğu inkişaf etdirəcəyik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və parlamenti təbrik etmək istəyirəm. Sizlərə müvəffəqiyyətlər və nailiyyətlər arzulayıram.

Parlamentinin 90 illik yubileyini qeyd edən Azərbaycan xalqının keçirdiyi hisslər 90 il əvvəl müstəqilliyi, milli mənliyinin qorunması, dövlətçiliyi uğrunda eyni mübarizə yolu keçən Litva xalqına da tanışdır.

Ştefan Rayxe

Almaniya Federativ Respublikası Bundestaqının Azərbaycan parlamenti ilə dostluq qrupunun sədri

Sizə Almaniya Bundestaqının salamlarını və təbriklərini çatdırmaq istərdim. Bizim parlamentlərimiz və xalqlarımız bir-biri ilə tarixən çox bağlıdır. Azərbaycanda xeyli sayda alman məskənləri və alman kilsəsi mövcuddur. Təsadüfi deyil ki, bu il Almaniyada Azərbaycan mədəniyyət ilidir. Gələn il isə Azərbaycanda Almaniya mədəniyyət ili keçiriləcək. Azərbaycanda axırıncı dəfə 8 ay bundan əvvəl olmuşam və qısa müddətdə belə böyük dəyişikliklər məndə dərin təəssürat oyatdı. Hamımız Ermənistanla aranızda olan münaqişənin tezliklə sülh yolu ilə həll olunmasını arzu edirik. Təbii ki, bu münaqişənin beynəlxalq hüquq çərçivəsində həll edilməsinin tərəfdarıyıq. Biz sizi Avropa qonşuluq siyasəti çərçivəsində dəstəkləyirik. Ümid edirik ki, Cənubi Qafqaz İttifaqı nə vaxtsa Avropa İttifaqının qapısını döysün, onda qonşuluq siyasətindən daha geniş siyasət çərçivəsində əməkdaşlıq edə biləcəyik . Arzumuz budur ki, Milli Məclisin 100 illiyində Azərbaycanda sülh şəraiti hökm sürsün və bütün qonşular bu yubileydə iştirak etsin. Sizə gələcəkdə də demokratiya, hüquqi dövlətçilik arzu edirəm. Əminəm ki, bütün bunlar iqtisadi inkişafla bir yüksələcək. Arzu edirəm ki, 2016-cı ildə Avropa futbol çempionatı Azərbaycanda keçirilsin. Sizin xalqınıza uğurlar diləyirəm. Azərbaycan parlamentinə və xalqına rifah arzulayıram.

Qısa müddət ərzində Azərbaycanda baş verən böyük dəyişikliklər Ştefan Rayxeyə dərin təsir bağışlayıb.

Karl Öllinger

Avstriya Respublikası Milli Şurasının Azərbaycan parlamenti ilə dostluq qrupunun sədri

Bizi Azərbaycan parlamentinin 90 illik yubileyinə dəvət etdiyiniz üçün sizə öz dərin minnətdarlığımı bildirirəm. Həmçinin bizim parlament adından və parlamentin sədri adından sizi yubiley münasibətilə təbrik edirəm. Bizim xalqlar arasında birgə mədəni və tarixi irslər mövcuddur. Mən təkcə parlamentlərimiz arasında dostluq münasibətlərini arzulamıram. Arzu edirəm ki, aramızdakı dostluq münasibitləri bütün sahələri əhatə etsin.

Mən Azərbaycan xalqına sülh arzulayıram və istərdim ki, bütün qaçqınlar öz yurd-yuvalarına qayıtsınlar, doğulduqları yerdə yaşaya bilsinlər. Bu insanların əsas hüquqlarından biridir.

Hörmətli həmkarlarım, biz bu gün sizinlə birlikdə bayram edirik və ümid edirəm ki, gələcəkdə də birgə işləyəcəyik.

Sonda sizə bir daha öz parlamentimizin səmimi təbriklərini yetirirəm.

Milli Məclis Azərbaycanın 90 il əvvəl yaranmış parlamentarizm ənənələrini layiqincə davam etdirir və müasir dövrün tələblərinə tam cavab verir.

Rəmzi Osman

Bolqarıstan Respublikası parlamentinin
Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri

İlk öncə dəvətə görə təşəkkürümü bildirirəm. Bolqarıstan Respublikası Xalq Məclisi və onun sədri adından Azərbaycan parlamentini 90 illik yubileyi münasibətilə təbrik edirəm.

Ötən müddət ərzində Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan dövlətinin inkişafında, müstəqilliyin möhkəmləndirilməsində önəmli rol oynayıb.

Həmçinin mən parlamentlərimiz arasında xoş münasibətlərin yaradılmasını məmnunluqla qeyd etmək istərdim. Bu münasibətlər ölkələrimiz arasında əlaqələrin dərinləşməsində mühüm yer tutur. Əminəm ki, Bolqarıstan Xalq Məclisi və Azərbaycan Milli Məclisi həm ölkələrimiz, həm də regionlarımız arasında bütün sahələrdə münasibətləri daha da möhəmləndirəcək.

Siz bu dəyişən dünyada yeni Azərbaycanın yeni tarixini yazırsınız. Bu tarixi yazarkən heç şübhəniz olmasın ki, Qara dənizin qərb sahillərində sizə dost bir ölkə - Bolqarıstan var. Bolqarıstan Balkanlarda bir barışıq adasına bənzəyir. Orada xristianlarla müsəlmanlar sülh şəraitində yaşayırlar.

Sonda bizim dostluq qrupu adından sizləri parlamentinizin 90 illik yubileyi münasibətilə təbrik edirəm. Sizə uğurlar diləyirəm. Sağ olun, var olun!

Balkanların barışıq adası Bolqarıstan və Qafqazın lider dövləti Azərbaycan tolerantlığın və dostluğun vətənidir.

Baronessa O`Kayn

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı İcmalar Palatasının deputatı

Mən çox şadam ki, Azərbaycan parlamentinin 90 illik yubileyi münasibətilə burada çıxış edirəm. Sizə Londondan salamlar gətirmişəm. 1918-ci ildə yaradılan ilk Azərbaycan parlamenti dünya əhəmiyyəti kəsb edirdi. Buna səbəb ilk dəfə Azərbaycan parlamentində qadınlara səs vermək hüququnun verilməsi idi.

Azərbaycan model rolunu oynayan ölkədir. Mən ikinci dəfədir ki Azərbaycana səfər edirəm. Bir iqtisadçı kimi Azərbaycanın sürətli iqtisadi inkişafı məni həm təəccübləndirdi, həm də maraqlandırdı. Bildiyimə görə, burada bir fond yaradılmışdır ki, ölkənin müxtəlif infrastruktur layihələrindən əldə olunan gəlir bu fonda toplanır. Bu isə yığılan vəsaitin xərclənməsində şəffaflıq yaradır.

Eyni zamanda Azərbaycanın böyük turizm potensialı da var. Coğrafi yerləşməsinə görə Azərbaycanda Şərq və Qərb mədəniyyəti haqqında geniş təsəvvür əldə etmək olar. Müxtəlif dinlərin bir yerdə necə firavan yaşadığını da Azərbaycanın nümunəsində görmək olar. Son zamanlar Qərbin Azərbaycana marağı artmaqdadır. Qeyd etmək istərdim ki, Londonda Azərbaycan diasporunun uşaqları üçün ikinci Azərbaycan dilli məktəb açılmışdır. Sonda bütün Azərbaycan xalqını bu bayram münasibətilə təbrik edirəm və sizə Azərbaycan dilində: "Çox sağ olun" deyirəm.

Böyük Britaniya parlamentinin üzvü, Azərbaycanın yaxın dostu Baronessa O` Kayna ölkəmizdə böyük məhəbbət və hörmət bəsləyirlər.

Jan-Lui Dümon

Fransa Respublikası Milli Assambleyasının
Fransa-Azərbaycan dostluq qrupunun sədri

Sizə Fransa Milli Assambleyasının sədrinin salamlarını çatdırmaq istərdim. Azərbaycan parlamentinin 90 illik yubileyində bizim parlamentin 6 nəfər üzvü ilə birlikdə iştirak etməkdən qürur duyuram. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, sizin parlament 90 il ərzində mürəkkəb tarix yaşamışdır və bəzən çox çətin dövrlərdən keçmişdir. Biz çox şad olardıq ki, bundan sonra da parlamentiniz müstəqil Azərbaycanda dövlətin, demokratiyanın möhkəmləndirilməsində fəaliyyətini davam etdirsin. Fransa parlamenti deputatlarının burada iştirak etməsi bizim ölkələr arasında olan xoş və dostluq münasibətlərinin bariz nümunəsidir. Fransa Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələr sırasındadır. Heç də təsadüfi deyil ki, cənab Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə məhz Fransaya səfər etdi. Bir neçə gün sonra Avropa İttifaqında sədrlik Fransaya veriləcəkdir. Bizim respublikanın prezidenti dünyanın bugünkü sərt tələblərinə cavab verməyə çalışacaq. Həmçinin qonşuluq siyasətinin daha da inkişaf etdirilməsinə diqqət veriləcək. Fransanın Minsk qrupundakı fəaliyyətindən də danışmaq istərdim. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli çox vacibdir. Xüsusilə Azərbaycanda qaçqın və məcburi köçkünlərin problemi həll edilməlidir və onlar öz doğma yurd-yuvalarına qayıtmalıdırlar. Biz parlamentçilər bu əzabəziyyətlərə son qoyulmasına çalışmalıyıq. Eyni zamanda iqtisadi inkişafı artırmalıyıq, çünki bu demokratiyanın yüksəlişinə yol açır. Cənab sədr, bizim dostluq qrupu sizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edir, parlamentinizə öz işlərində müvəffəqiyyətlər arzulayır.

Fransa parlamentinin üzvü Jan-Lui Dümon Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinin, qaçqın və məcburi köçkünlərin tezliklə öz doğma yurd-yuvalarına qayıtmasının tərəfdarıdır.

Yubiley tədbirlərində iştirak edən xarici ölkələrin parlament nümayəndə heyətləri ölkələrinə zəngin təəssüratla qayıdacaqlar.

Priyo Budi Santoso

İndoneziya Respublikası Nümayəndələr Palatası nümayəndə heyətinin rəhbəri

İcazə verin öz nümayəndə heyətimizin adından belə yüksək səviyyədə hazırlanan tədbirə görə Azərbaycan parlamentinə öz təşəkkürümü bildirim. Fürsətdən istifadə edərək Azərbaycan hökumətinə və xalqına bizə göstərilən qonaqpərvərliyə görə də təşəkkür edirəm, həmçinin İndoneziya parlamentinin spikerinin salamlarını çatdırıram. Cənab sədr, icazə verin İndoneziya Respublikası parlamenti adından Azərbaycan Respublikasının parlamentinin yaradılmasının 90 illiyi münasibətilə sizi təbrik edim. Burada bir çox ölkələrin nümayəndələri iştirak edir və biz hamımız Azərbaycanda iqtisadi inkişafın şahidiyik. Söz yox ki, iqtisadi inkişaf xalqlarımız üçün böyük əhəmiyyət kəsb edir. Lakin eyni zamanda dünyada beynəlxalq qanunların pozulması, qiymətlərin artımı, yoxsulluq və s. problemlər qalmaqdadır. Biz ümid edirik ki, Azərbaycan parlamenti bu problemlərin həll olunmasında beynəlxalq aləmdə fəal rol oynayacaq. Bizi dəvət etdiyinizə görə sizə bir daha öz minnətdarlığımızı bildiririk.

Kristina Egerszegi-Obrist

İsveçrə Konfederasiyası Milli Şurası nümayəndə heyətinin rəhbəri

Azərbaycanın paytaxtı Bakı şəhərində bu təntənəli mərasimdə çıxış etmək mənim üçün böyük şərəfdir. Bu gün biz Azərbaycan parlamentinin 90 illik yubileyini qeyd edirik və İsveçrə parlamentinin təbriklərini sizə çatdırıram. Azərbaycan parlamentinin 90 illik yubileyinin qeyd olunması ounu göstərir ki, çətin bir tarixi şəraitdə yaranan bu parlament indi də mövcuddur. 1918-ci il mayın 28-də Milli Şura Azərbaycanın müstəqilliyini elan etdi. Respublikanın qısa müddət mövcud olmasına baxmayaraq, o zaman üçün bu çox böyük bir təcrübə idi. Xüsusilə qadınlara seçki hüququnun verilməsi o dövrün böyük siyasi nailiyyətlərindən biri idi. Qeyd etmək istərdim ki, İsveçrədə bu hüquq qadınlara 1971-ci ildə verilmişdir. 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikası etnik və dini azlıqların demokratik strukturlara inteqrasiyasını nəzərdə tuturdu. Bu demokratiya nöqteyi-nəzərindən çox vacibdir. Mən parlamenti demokratiyanın və demokratik sistemin dayağı hesab edirəm. Ölkəyə qarşıda duran problemlərin demokratik və ədalətli həlli üçün parlament lazımdır. Coğrafi mövqeyinə görə Azərbaycan Avropa ilə Asiyanın kəsişməsində yerləşir. Mən inanıram ki, xalqınız bu faktdan bəhrələnəcəkdir. Azərbaycanın siyasi liderləri həmişə bəyan etmişlər ki, onlar beynəlxalq əlaqələrin genişləndirilməsinin tərəfdarlarıdırlar və İsveçrə neytral müşahidəçi kimi bu səyləri yüksək qiymətləndirir. İsveçrə Azərbaycanla ikitərəfli əlaqələri genişləndirməyə hazırdır və bütün sahələrdə əlaqələr qurmaqda maraqlıdır. Mən sonda Azərbaycan hökumətinə, parlamentinə və xalqına uğurlar arzulayıram.

İsveçrə Konfederasiyası parlamentinin üzvü Kristina Egerszegi-Obristin fikrincə 1918-ci ildə Azərbaycanda qadınlara seçki hüququnun verilməsi o dövrün ən böyük nailiyyətidir.



Yanoş Xorvat

Macarıstan Respublikası Milli Assambleyasının Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri

Bu gün Azərbaycan üçün əlamətdar bir gündür. Mən Azərbaycan Respublikası və parlamentinin 90 illik yubileyinə Macarıstan parlamentinin sədrinin, 360 parlament üzvünün, ümumiyyətlə, 10 milyon macar xalqının təbriklərini gətirmişəm. Çox şadam ki, bu gün burada mənim də öz təbriklərimi çatdırmağa imkan yaradılıb. Sizin parlament bizim millətlərin yaxınlaşması üçün böyük işlər görür. Biz də çalışırıq ki, Azərbaycanla əlaqələrimizi daha da genişləndirək və enerji layihələrinin sayını artıraq. Azərbaycan daim enerjini Avropaya çatdırmaq üçün yeni üsullar axtarır. Bu istiqamətdə Azərbaycanın təşəbbüslərini yüksək qiymətləndiririk.

Azərbaycan qarşısına çıxan problemləri müvəffəqiyyətlə həll edir. Mən Azərbaycanı qlobal şəkildə misal kimi nümunə göstərmək istərdim. İkinci peşəm iqtisadçıdır. Mühazirələrimdə sürətli iqtisadi inkişafı göstərmək üçün yaxşı nümunə kimi Azərbaycanın da adını çəkirəm. Belə iqtisadi inkişaf Azərbaycan üçün mümkündürsə, deməli digər ölkələrdə də bu inkişaf mümkündür.

Mən azərbaycanlı deputatları Macarıstana dəvət edirəm. Bizim parlamentə gəlsinlər və biz əlaqələrimizi daha da genişləndirək. Təşəkkür edirəm.

Həm də iqtisadçı olan Yanoş Xorvat mühazirələrində Azərbaycanı sürətli iqtisadi inkişafa bariz nümunə kimi göstərir.

Mohsen bin Məhəmməd Əal

Səudiyyə Ərəbistanı Krallığı parlamentinin Azərbaycan parlamenti ilə dostluq qrupunun rəhbəri

Müsəlmanların qibləsi olan Səudiyyə Ərəbistanı Krallığından sizə təbriklər gətirmişəm. Çox şadam ki, qardaş Azərbaycan xalqını və onun parlamentini 90 illik yubiley münasibətilə təbrik etmək mənə nəsib olub.

Azərbaycanla bizim ölkə arasında əlaqələrin inkişafında ölkə rəhbərlərimizin xidmətləri böyükdür. Azərbaycanla qardaş Ərəbistan arasında gözəl münasibətlər mövcuddur. İnşallah, bu münasibətlər daha da inkişaf edəcək və bütün sahələri əhatə edəcək. Qardaş Azərbaycan xalqına sabitlik və firavanlıq arzu edirəm.

Milli Məclisin sədri cənab Oqtay Əsədov, bu gözəl qəbul, bu gözəl dəvət üçün, bizimlə ünsiyyətdə olan hər bir insanın bizə göstərdiyi səmimiyyət üçün sizə böyük minnətdarlığımı bildirirəm. Həmçinin Milli Məclisin Azərbaycan-Ərəbistan dostluq qrupunun sədri cənab Fəttah Heydərova qonaqpərvərliyə və səmimi ünsiyyətə görə təşəkkür edirəm.

Yubiley tədbirlərində iştirak edən xarici qonaqlar onlara göstərilən səmimi qəbuldan, yüksək qonaqpərvərlikdən, dost münasibətdən dönə-dönə razılıq etdilər.

Azərbaycan parlamentinin
90 illik yubileyinə həsr olunmuş
təntənəli mərasim Gülüstan
sarayında rəsmi ziyafətlə
başa çatdı.

90